# AXİRƏT ALƏMİNƏ SƏYAHƏT

**Müəllif: Ayətullah Quçani**
**Tərcümə Edən: Hacı Arzu**

# RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ
# OXUCULARLA SÖHBƏT

Texnika əsrində, maşınlaşmış həyatın keşməkeşlərində insanın canından qəflət və mürgünü çıxarmağa yönəlmiş xatırlatmaların zəruriliyi tamamilə aydındır. İnsanların öz maddi həyatlarını qurmağa çalışdıqları, adətən öz vücudlarının mənəvi yanğısını düşünmədikləri bir dövranda (əslində çoxları bu yanğını dərk etmirlər) bir adam tapılsa ki, başqa birinin dərdini ona səmimi şəkildə bildirib dərmanını da bəyan etsin, həmin özündən xəbərsiz xəstə o adama sığınar, öz itkisini o adamda axtarar, onun himayəsində azca da olsa, sakitləşər və öz ruhunu, canını çirkinliklərdən təmizləyər.

Mərhum Nəcəfi Quçani Ağa öz xəstəsini tanıyan, onun dərdini anlayan həkim kimi əlinə qələm götürmüş, könül titrədən, göz yaşları axıdan bir nüsxə (resept) yazmışdır. Amma bu ağrı və kədərin arxasında bir dünya mehribanlıq və xeyirxah uzaqgörənlik gizlənmişdir.

Bu kitabdakı hekayət bir insan haqqındadır ki, maddi və mənəvi dərd-ələmli torpaq dünyasına "get" deyib başqa bir dünyaya pərvazlanıb. Bu şəxsin başqa ölülərdən fərqi onun danışan dilidir. Bu dil ölümdən sonra açılmış və bizim də gözlərimizə ölümdən sonrakı aləmlərdən bacalar açmışdır.

Yazıçı bu kitabda gördüklərini, eşitdiklərini, vücudu ilə hiss etdiklərini özünə hekayət edir. O, burada özündən bir şey ixtira etməmiş, uydurmamış, yanlışlığa getməmişdir ki, Allah eləməmiş, özü yolunu aza və müsahibini də sapdıra. Əksinə, bu cərəyanların fikir bünövrəsini zəngin İslam mədənəyyətinin əsasları, Qurani Kərim ayələri, mötəbər rəvayətlər bütün əsər boyu izləyir. İsmət, günahsızlıq yalnız Peyğəmbər (s.ə.v.v) və onun pak ailəsinə layiq olduğundan, sair insanlar səhv və xətasız deyildir. Bu kitabın da bəzi sətirlərində müəyyən mətləblər nəzərə çarpırdı ki, müəllifin şəxsi zövq və səliqəsindən doğur. Dəqiq oxucu, elmi təhlil və onların sübutu məqsədində olmamalıdır. Çünki hətta dəqiq və dəlilli bir insan da həqiqətlərin bəyanı və əqidənin izharı üçün öz şəxsi səliqəsinə əsaslanmış mətləblərin bəyanına məcburdur. Bununla belə, iddia etmək olar ki, ümumi qaydadan istisna olmayan bu kitabda oxucunun yanılmasına, çaşmasına səbəb olacaq mətləblər gözə dəymir. Lətif və könüloxşayan tərzdə həqiqətlərin bəyanına sadiqanə baş vurmuş müəllifin mütaliə olunmaq dəyəri vardır.

Bu kitabı bütün həqiqət axtaranlara, həyatını yaxşılıqlar ağuşu, insaniyyətin təravətli çəmənzarı etmək istəyən etiqadlı insanlara təqdim edirik. Ümid edirik ki, bu yaxşılıq ağaclarının fidanlarının əkinində azca da olmuş olsa, bizim də rolumuz olacaqdır.

# İNDİ İSƏ BİR QƏDƏR MÜƏLLİF HAQQINDA

Qarşınızdakı kitab rəbbani alim, ilahi həkim, zinətli arif höccətül-İslam Ağa Seyyid Məhəmməd Həsən Nəcəfinin (Nəcəfi Quçani kimi məşhurdur) qələmindən çıxmış bir əsərdir. İzaha ehtiyaclı mətləblərdə Əhməd Tədəyyün və Məhəmmədrza Ətai Quçaninin qeydlərindən istifadə olunmuşdur.

Mərhum Nəcəfi Quçani Ağa hicri-qəməri tarixi ilə 1295-ci ildə Quçan ətrafında gözəl və səfalı Xosrəviyyə kəndində anadan olmuşdur. Ömrünün ilk illərini başa vurub məktəbə getmişdir. Atası onun təlim-tərbiyəsində fövqəladə ciddilik göstərmiş, batini meylinin əksinə olaraq onun dərs, bəhs və təhsilinə cəhd etmişdir.

Elm və biliyin hələ şirinliyini dadmamış, onun səmərəsindən bəhrələnməmiş bu xam uşaq on üç yaşında ikən Quçana gedir, qohumlarının evində qalır. Quçanda təhsil çətinlikləri ustadın şəxsi işlərinin yerinə yetirilməsi əziyyətləri ilə daha da artır. Müqəddimat üç il öyrənilir. Sonra o bəzi tələbələrlə birlikdə piyada Məşhədə yola düşür. Məşhəddə ədəbiyyat və səthi, qanunlaradək öyrənir. Ehtiyacını ödəmək üçün yay aylarında əkin sahələrində işləyib bu yolla dolanır. Çox keçmir ki, bu bərəkətli yeniyetmə bəzi ixtilaflara görə təhsildən ayrılır və vətən havası ilə Quçana qayıdır. Az sonra, təqribən 20 yaşında ikən təhsilini davam etdirmək üçün İsfahana gedir. İsfahanda mərhum Molla Hadi Səbzvarinin "Mənzumə"sini Axund Kaşidən, "Rəsail"i Şeyx Əbdülkərim Gəzidən, hikməti (fəlsəfə) Mirzə Cahangirxandan, fiqhi Ağa Nəcəfi İsfahanidən, qanunları Şeyx Əli Babadan öyrənir.

Həmin vaxtlar xaric dərsini Seyyid Baqirin yanında oxuyur. Dolanışığı olduqca çətin keçir, yalnız elmə olan heyranlıq və əlaqə bu çətinliyi yüngülləşdirir. Bu dövr Nəcəfi Quçani Ağanın həyatının ən mühüm, əsas dövrüdür.

Zaman ötdükcə mənəviyyat onun həyatında xüsusi bir yer tutur. Allah yolunda ibadət və məşəqqətlərin çox məfhumunu anlayır və sinəsində ilahi feyz nuru təcəlla edir. Allah fikri və Allah razılığı onun ən mühüm tərbiyə qazancı olur. Bu cərəyanları onun öz yazdıqlarından öyrənmək olur.

Dörd il İsfahanda qaldıqdan sonra piyada Nəcəfə yola düşür və 23 yaşında Nəcəfə varid olur. Allahın inayəti və Şahi-Nəcəfin (Həzrət Əli (ə)) imdadı ilə Nəcəfi olur və bu ad ömrünün sonunadək ona yadigar qalır.

Əslində ziyarətə gəlmiş Nəcəfi Ağanı burada Axund Xorasaninin azadfikirliliyi, səfası, möhkəm bəyanı saxlayır. O, belə bir ustadı hər zaman yaxşılıqla xatırlayır. Nəcəfi Ağa fiqh və üsulun xaricini Axund Xorasani və Şəriət İsfahanidən öyrənir. Molla Sədra Şirazinin "Hidayə"sinin şərhini isə Şeyx Məhəmməd Baqir Əstəhbanatinin yanında təhsil alır.

Şeyximiz ilahi tovfiqlə, öz ömründən ardıcıl illər boyu zəhmətlə, otuz yaşında ikən şərif ictihad dərəcəsinə nail olur. Bu müddətdəki kasıblıq, ehtiyac, aclıq, borcdan danışmağa müxtəsər vaxtımız imkan vermir. Lakin

nəhayətdə həmin müsibətlər səbəbindən, bu uşaq "Ağa Nəcəfi" olur ki, adı dildən-dilə gəzir.

Nəcəfi Ağa hicri-qəməri 1325-ci ildə İran Məşrutə hərəkatı dövrlərində Kərbəlada yaşayan bir iranlı ailəsindən bir qızla evlənir.

Təqribən iyirmi il Nəcəfi-Əşrəfdə qaldıqdan sonra atasının vəfatı Nəcəfi Ağanın vətənə qayıtmasına bəhanə olur. Bu dəfə rəbbani alim Nəcəfi elm və təcrübəsi ilə öz doğma şəhərinin məhrum və məzlumlarına arxa olur. Ömrünün iyirmi beş ilindən çoxunu camaatın işlərinin idarəsinə sərf edir.

Bu böyük alim hicri-qəməri tarixi ilə 1363-cü ilin rəbiüs-sani ayının 26-da, cümə axşamı Quçanda vəfat etmiş və öz mənzilinin otaqlarından birində dəfn olunmuşdur. Hazırda qəbri aşiqlərinin və dostlarının ziyarətgahıdır. Ruhu şad, mütəali olsun!

Xatırladaq ki, Ramazanəli Şakiri Ağanın, Seyyid Məhəmməd Məlaiki Quçaninin ilk nüsxəsindən yazdığı ikinci əsl əlyazma "Astani-Qüdsi-Rəzəvi (ə)" kitabxanasında 907 sayla fotx-dəftər və 205 sayla əlyazmalar fondunda saxlanır.

"Sürur" nəşri

# AXİRƏT ALƏMİNƏ SƏYAHƏT (QƏRB SƏYAHƏTİ)

## GİRİŞ

### Bismillahir-rəhmanir-rəhim

Əlhəmdu lillahi Rəbbil-aləmin, Maliki yovmid-dünya vəd-din.

Sonsuz salam olsun İslam Peyğəmbəri və onun pak, məsum övladlarına ki, insanların cism və ruhlarının təbibidirlər. Onun sözüdür ki, dünya sevgisi (dünyaya məftun olmaq) böyük xəstəlikdir və insanın xəstəlikləri onun qol-budaqlarıdır. O xəstənin dərmanı–ölümü xatırlamaqdır.

Söhbətin əvvəlində bu Allah bəndəsi (yəni müəllif-**red.**) deyir ki, şəmsi tarixi min üç yüz yeddinci il başa çatmamış, müəllimlikdən axıradək öz məlumatlarımı yazdım və onun adını "Şərq səyahəti" qoydum. İndi isə şəmsi tarixi ilə min üç yüz on ikinci ildə öz bərzəx (ölümlə qiyamət arası) məlumatlarımı qələmə alıb, "Qərb səyahəti" adlandırdım. Qoy bu yazı məndən yadigar qalsın və İslam ümmətinə öyüd olsun.

## BƏDƏNİMİZ BİR PƏRDƏDİR

Tamamilə aydındır ki, təbiət aləminin maddi cismi insanın gözünə çökmüş qalın hicab, keçilməz və möhkəm pərdədir. Yalnız ölmək, bu maddi

dünyadan çıxmaqla bu pərdə kənara çəkilə bilər və insan bu vaxtadək görmədiklərini görə bilər. "Sən bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən."[1]

Mən bir halda dünyadan getdim ki, gördüm dayanmışam və bədənimdəki xəstəlik yox olub, sağlamam. Yaxınlarım cənazəmin ətrafında mənim üçün ağlayır, mən də onlar ağladıqları üçün qəmginəm. Onlara deyirəm ki, "mən ölməmişəm, xəstəlikdən qurtulmuşam." Amma kimsə mənim sözlərimə qulaq asmır. Sanki məni görmürlər, səsimi eşitmirlər. Anladım ki, onlar məndən uzaqdırlar. Cənazəylə olan tanışlıq və dostluqdan dayanıb, gözümü çılpaq olan sol çiyninə dikmişdim. Qusl və başqa işlərdən sonra cənazəni qəbiristana tərəf apardılar.

Mən də dəfn edənlərlə yanaşı getdim. Onların arasında bəzi vəhşi canlıları, qeyri-adi yırtıcıları görüb dəhşətə gəlmişdim.

Amma başqaları onlardan çəkinmir, onlar da başqalarına dəymirdilər. Sanki əhliləşmişdilər. Elə ki, cənazəni gora endirdilər, mən də gorda dayanıb tamaşa edirdim. Bu zaman məni qəribə bir dəhşət bürüdü. Xüsusilə o zaman ki...

## QƏBİRDƏ

...gördüm qəbirdə cürbəcür heyvanlar peyda oldular və cənazəyə hücum etdilər. Cənazəni qəbirdə yerləşdirən adam onlara dəymədi, onları görmürmüş kimi qəbirdən çıxdı.

Cənazəyə əlaqəm olduğundan qəbrə girdim ki, bu heyvanları bayıra çıxaram. Lakin onlar çoxalıb, mənə qalib gəldilər. Bir tərəfdən də elə qorxuya düşmüşdüm ki, bütün bədənim əsirdi. Camaatdan kömək istədim, amma bir kəs dadıma çatmadı. Hərə öz işinə məşğuldu və qəbirdəki həngamədən xəbərsizdi.

Qəfildən qəbirdə başqa şəxslər peyda oldular və mənə kömək etdilər. Heyvanlar qaçdılar. Onların adlarını soruşmaq istəyirdim ki, dedilər…

"Yaxşı əməllər pis işləri yuyub aparar."[2] və görünməz oldular...

Bu həngamədən sonra gördüm ki, adamlar qəbri doldurub, məni dar və qaranlıq qəbirdə qoyublar. İndi isə evlərinə tərəf gedirlər. Hətta qohumlar, dostlar, gecə-gündüz qulluğunda durduğum arvad-uşaq da məni tək qoydular. Onların vəfasızlığından, qəbrin qorxu və dəhşətindən, tənhalıqdan elə qəmləndim ki, az qala bağrım yarıla.

Fövqəl-adə qürbət və dəhşətdə, Allahdan başqalarından əlimi üzdüyüm halda cənazənin başı üstə oturdum. Qəbir lərzəyə gəlirdi. Gorun divar və tavanından torpaq tökülürdü. Xüsusilə qəbrin aşağısında silkələnmə güclü

---

1"Qaf" surəsi, ayə 22.
2"Hud" surəsi, ayə 114.

idi. Elə bil bir heyvan oranı yarıb qəbrə daxil olmaq istəyirdi. Nəhayət, həmin yer yarıldı və gördüm...

## ALLAHIN KİMDİR?

İki nəfər qorxunc çöhrəli, vahiməli heykəlli, nəhəng, div kimi qəbrə daxil oldular.

Ağızlarından və burun dəliklərindən tüstü, od-alov püskürürdü. Əllərində odda qızarmış, alov saçan gürzlər vardı. Onlar yeri-göyü titrədən ildırım səsiylə cənazədən soruşdular… "Mən Rəbbukə?"-Allahın kimdir?

Qorxu və dəhşətdən dilim-ağzım qurumuşdu. Elə bildim ki, ruhsuz cənazə onların cavabını verə bilməyəcək və onlar da heç şübhəsiz, gürzlərlə elə vuracaqlar ki, qəbir alovla dolacaq. Vəsfə gəlməz bu dəhşətdə, yandırıcı od daha da artacaq. Yaxşısı budur, mən cavab verim. Çarəsizlərin çarəsi, dara düşənlərin ümidi Haqqa üz tutub, qəlbimdə dara düşənlərin yardımçısı Əliyyibni Əbi Talibə (ə) mütəvəssil oldum. (Himayədarlığa çağırmaq, istəyini Allahdan İmam vasitəsi ilə almaq.)

Onu dost tuturdum, qüdrət və qüvvəsini bütün aləmlərdə, mənzillərdə nüfuzlu bilirdim. İnsanın huşunu əlindən alan belə qorxunc, xətərli anlarda Həzrəti çağırmaq kimi bir vasitənin yada salınması Allahın nemətlərindən, yardımlarındandır.

"İnsanları məst görərsən, hansı ki, onlar məst deyildirlər."[1]

Bu fikir və düşüncə qəlbimə qüvvət verdi, dilim açıldı. Mənim sükutum çox uzandığından, həmin iki şəxs misilsiz qəzəb və hiddətlə ikinci dəfə soruşdular… "Allahın kimdir?" Əvvəlkindən yüz dəfə çətin idi. Qəzəbdən çöhrələri qaralmışdı, gözlərindən od saçırdı. Gürzləri qaldırıb, vurmağa hazır dayandılar.

Amma mən əvvəlki kimi qorxmurdum. Zəif səslə cavab verdim ki, mənim məbudum yeganə və oxşarsız Allahdır.

"O Özündən başqa heç bir məbud olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O, rəhmli və mərhəmətlidir. O, Özündən başqa heç bir məbud olmayan, (məxluqun) sahibi, müqəddəs və pak, əmin-amanlıq bəxş edən, məxluqatın qəyyumu və nəzarətçisi, qalib, hökmü keçən və hər şeyin fövqündə olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqları şəriklərdən pak və münəzzəhdir."[2]

Dünya həyatında daim hər sübh namazından sonra oxuduğum bu ayələri onlara dedim ki, Adəm övladının fəzl və kamalsız olduğunu düşünməsinlər. Axı mələklər ilk gündə insanın yaranışına etiraz edib onu yalnız fəsad törədib, qan tökən adlandırmışdılar! Bir sözlə, onların cavabında bu şərif ayəni oxumağım onların qəzəbini sındırdı, çöhrələrinin tutqunluğu getdi.

---

1"Həcc" surəsi, ayə 2.
2"Həşr" surəsi, ayə 22, 23.

Hətta biri o birinə dedi… Məlum olur ki, bu, İslam alimlərindəndir, bundan sonra ona nəzakətlə sual verməyimiz yaxşıdır.

O biri dedi… Bizim onunla rəftarımızın necəliyi başqa bir sualın cavabı ilə bağlıdır və bu cavab kim olursa olsun, səbəb və nüfuzların bizim nəzərimizdə etibarı yoxdur.

Sual verdilər…

## PEYĞƏMBƏRİN KİMDİR?

Bu sualda qəlbimin döyüntüsü daha da azaldı, dilim daha da açıldı, səsim daha da ucaldı. Cavab verdim… Mənim Peyğəmbərim Allahın insanlara göndərdiyi elçidir. O, Həzrət Mühəmməd ibni Əbdüllah, peyğəmbərlərin sonuncusu və ağasıdır.

Bu zaman onların narahatlığı və qəzəbi tamamilə yox oldu.

Çöhrələri işıqlandı. Mənim də qorxu və dəhşətim yox oldu.

Sonra kitab, qiblə, İmam və Allah Rəsulunun xəlifəsindən sual verdilər. Mən cavab verdim…

Kitabım mehriban Allah tərəfindən alim və böyük Peyğəmbərə nazil olmuş Qurani Kərimdir. Qibləm Məscidül-həramdır. Allah-Taala buyurub… “Harada olsan, ibadət zamanı üzünü Məscidül-hərama tut.” Həzrət İbrahim buyurdu… “Üzümü O Allaha tərəf tuturam ki, yer və göy Onun əmri ilə hərəkətdədir, dinim var, şirkdən uzağam.”

İmamlarım Peyğəmbərin on iki haqq canişinidir ki, birincisi Həzrət Əliyyibni Əbi Talib, sonuncusu Həzrət Bəqiyyətullahdır. Hər biri vacibə alim, günah və xətadan pakdırlar.

Onlar dünyada əməllərimizə şahid, axirətdə şəfaətçi, Allahın bağışlamasına vasitədirlər...

O böyük şəxslərin adlarını, əslini-kökünü adbaad saydım. Dedilər… Təfsil lazım deyil, hər kəlmənin cavabı bir kəlmədir. Dedim… Sizin üçün bundan da müfəssəl lazımdır, çünki bizim haqqımızda əvvəldən bədgüman olmusunuz. Həkimin buyurduğuna etiraz caiz omasa da bizim yaranışımıza etiraz etmisiniz. Etirazınızı anlayandan sizdən küskün olmuşam. Hətta əhd etmişəm ki, əgər macalım olsa, sizdən bunun səbəbini soruşam, heyf ki, bu vəziyyətdə macalım yoxdur.

Susdum və nə sual verəcəklərini gözlədim. Bir sual vermədilər, yalnız soruşdular…

## BU CAVABLARI HARADAN ÖYRƏNDİN?

Soruşdular… bu cavabları haradan deyirsən və haradan öyrənmisən?

Mən dərin fikrə getdim. Görən qəflət, cəhalət, xəta dünyasında tərtib etdiyimiz dəlil-sübutlarda maddə, surət, şəraitlə bağlı səhvlər olmayıb ki? Haradan məlumdur ki, xəyalım azmayıb, dəlillər məntiqi ölçülərə uyğundur,

bu ölçülər özü həqiqidir? Bu ölçüləri yaradan Ərəstu özü xəta etməyib ki? Mümkündür ki, yalnız o biri aləmdə səhvlərimizdən xəbərdar olaq.

Tutaq ki, bu dəlillər həqiqidir. Axı bu dəlillərə yalnız və yalnız korluq, nadanlıq evi olan bu dünyada ehtiyac duyulur. Bu dəlillər əl ağacı, əsa kimidir. Əsaya kor və ya qaranlığa düşmüş insan möhtacdır. Amma düşdüyüm aləm həqiqətdir. Bu aləm o qədər işıqlı, gözlər o qədər itidir ki, əsaya yer yoxdur. Bəs bu şəxslər məndən nə istəyirdilər? Xudaya, mən bu dünyanın təzə doğulmuşuyam, bura əhlinin dilini öyrənməmişəm. And verirəm Əliyyibni Əbu Talibin haqqına, kömək et!

Mən bu fikir və yalvarışda idim ki, qəfildən onların nərəsi ildırım tək guruldadı… Söylə, dediklərini haradan dedin!

Onlara nəzər saldım. O qədər qəzəbli surətləri vardı ki, gözlər görməsin! Gözlər çevrilmiş, alov dili tək qırmızı, çöhrələr qara, tutqun, ağızlar dəvə ağzı tək açılmış, dişlər yekə və sarı, gürzlər vurmağa hazır, mən isə qorxu və iztirabın şiddətindən bihuş!

Bu halda elə bil ilham aldım və gözlərim qorxudan qapalı, zəif səslə cavab verdim… Bu bir mətləbdir ki, Allah məni buna hidayət, sövq edib.

Dedilər… Yat, toy otağında bir bəy yuxusu ilə yat!

Getdilər. Mən də ya yuxuya getdim, ya da bihuş oldum. Amma hiss edirdim ki, həmin iztirablardan qurtulmuşam.

## QƏBİRDƏ İLK YUXUDAN SONRA

Az sonra ayılıb gözümü açanda özümü xalılarla döşənmiş bir otaqda gördüm. Xoş üzlü, xoş saçlı, xoş ətirli bir cavan başımı dizi üstünə alıb, oyanmağımı gözləyirdi. Mən ədəb və təvazö üçün qalxıb, salam verdim. O da gülümsünüb qalxdı, salamımı aldı. Görüş və mehribanlıqdan sonra dedi… Əyləş, mən nə peyğəmbər, nə İmam, nə də mələyəm, sənin dostun və rəfiqinəm.

Dedim… Adın nədir? Əslini-nəslini mənə de. Nə yaxşı ki, mənə rəfiq olmusan, kaş daim səninlə olaydım.

Dedi… Adım Hadidir, yəni yol göstərən. Bir ləqəbim Əbül-vəfa, o biri Əbuturabdır. Axırıncı sualın cavabını sənin dilinə gətirən mən idim. Sən cavab verib, qurtuldun. Əgər cavab verə bilməsəydin, əmudla elə vuracaqdılar ki, vücudundan od şölələnəcəkdi.

Dedim… Həzrət-Alinin mərhəmətindən məmnunam ki, sizin azad etdiyiniz kəsəm. Amma onların sonuncu sualı nəzərimə faydasız və bəhanə göründü. Axı İslami əqidələri düzgün cavab verdim və gerçək işləri izhar edən şəxsə “nə üçün, niyə” nə lazım? Əgər biri o birinin ovcuna od qoyursa, o da “əlim yandı” deyirsə “nə üçün əlinin yandığını izhar edirsən”, deyə soruşmaq olmaz. Əgər biri cahillikdən soruşursa, cavabı budur ki, məgər korsanmı, görmürsənmi od ovcumdadır? Onların sonuncu sualı bu qəbildən idi.

O dedi… Yox, belə deyil. Təkcə sözün həqiqətlə uyğunluğu insanın halına faydalı deyil. İnsaf və qəlbi əqidə lazımdır ki, əməlin yerinə yetməsi üçün şövqə gələsən. Necə ki, buyurulmuşdur…

"Biz iman gətirdik, deməyin... Biz İslamı qəbul etdik, deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır."[1]

Məgər əvvəlinci gündə "Mən sizin Pərvərdigarınız deyiləmmi"-sualının cavabında hamı "bəli" demədimi? Həqiqətin eynini, Həzrət-Haqqın rübubiyyət və mənəviyyatını təsdiq etmədilərmi?

Dedim… Bəli, elədir.

Dedi… Maddi dünyada insanlar vəzifələrlə imtahan olunurlar. Əvvəl gündə bu iqrar sırf dillə olub. Bəziləri bu vəzifələrdən boyun qaçırıb, imtahandan xalis, saf çıxmırlar. İndi də bu dünyanın ilk mənzilində həm möminlər, həm də münafiqlər suallara doğru və həqiqətə uyğun cavab verirlər. Həmin sual axırıncı imtahandır. Qəlbi əqidə olarsa, cavab verirlər və qurtuluş əldə olunar. Əgər qəlbi iman olmazsa, cavab verərlər ki, biz camaatdan təqlidlə bu əqidəyə yetişdik. Qəlbi rabitə, bağlılıq olmazsa, fayda verməz.

Məsumların (ə) xəbərlərində də bu barədə buyurulduğunu özün bilirsən.

Dedim… İndi yadıma düşdü ki, bu barədə xəbərlərdə varid olmuşdur. Lakin dəhşət və vəhşət sual zamanı bu mətləbi yadımdan çıxardı və sən yadıma saldın. Allah məni sənsiz qoymasın. İndi məni haradan tanıdığını de, axı mənim səninlə tanışlığım yox idi. İndi görürəm ki, sənə olan ifrat eşqdən səndən uzaqlığı özümə həlakət görürəm.

Dedi… Mən əvvəldən səninlə olmuşam, mehr-məhəbbət bəsləmişəm. Lakin sən məni hiss etmirdin. Çünki maddi dünyada sənin gözlərin bu qədər görmürdü.

Mən sənin Əliyyibni Əbu Talib və Peyğəmbər Əhli-beytinə olan məhəbbət və əlaqənin nəticəsiyəm. Onların səndəki hidayətinin təzahürüyəm (qabiliyyətincə). Bu səbəbdən adım Hadidir. Əlbəttə, sənin üçün. O isə bütün pərhizkarların, təqvalıların Hadisidir.

"Bu kitabda heç bir şəkk yoxdur və o, bütün təqvalıların rəhbəridir."[2]

Mən sənin həmin qırılmaz ipə ("Ürvətül-vüsqa"ya) can atmağın, sığınmağınam.

"Hər kəs tağutu inkar edib, Allaha iman gətirsə, bir ipdən yapışmışdır ki, qırılası deyildir."[3]

Sən özünü həvəslərlə məndən uzaqlaşdırmasan, mən də səndən ayrılası deyiləm. Ləqəblərimin Əbül-vəfa, Əbuturab olmasının səbəbi verdiyin vədələrə vəfa göstərməyindir. Sənin təvazön möminlərə məxsusdur.

Qısası, mən sənin qəlb beşiyində Əlidən doğulmuşam.

---

1"Hücürat" surəsi, ayə 14.
2"Bəqərə" surəsi, ayə 2.
3"Bəqərə" surəsi ayə 254.

Mənim qüvvə və istedadım, yararlı olub-olmamağım, varlığım və ya yoxluğum səndən asılı, sənin əlində, sənin ixtiyarında olub.

Günah zamanı səndən qaçmış, tövbədən sonra yaxınlaşmışam.

Ona görə dedim ki, bu dünya müsafirətində özündən təqsir, qüsur olmasa, səndən ayrılmayacağam.

“Allah Öz bəndələrinə zülm etməz.”[1]

“Bəndələrdir ki, özlərinə zülm edirlər.”[2]

## QƏFƏSDƏ SIXINTI

Hadi dedi… Mən gedirəm. Sən bir az istirahət etməlisən. Mən sənə tapşırılmış həmin ilahi əmanətəm. Quran qissələr və mənim əhvalatlarımla zəngindir. Əfsus ki, bu qədər Quran oxumaqla belə, yenə də mənə qarşı tanımamazlıq göstərirsiniz. Xudahafiz.

Elə ki, tək qaldım, öz halım və Hadinin bəyanları barədə dərin fikrə daldım. Gördüm ki, doğrudan da, maddi dünyada insanın halı, rəftarları bir yuxudur. Elə ki, ayılırıq, elə sanki yuxu aydın şəkildə yozulur. Zülqərneynin zülmətdəki kəlamı… “Hər kəs bu daşdan götürsə, işıqlığa çıxanda peşiman olacaq və hər kəs götürməsə, yenə də peşiman olacaqdır.” Buradakı kinayə insanın dünya və axirətdəki halına işarədir… hər kəs bir ölçüdə təəssüflənəcək. “Əfsus ki, Allahın dərgahında təqsir etdim.”[3]

Amma indiki peşimanlığın faydası yoxduræ artıq tövbə qapısı bağlanmışdır.

Bu fikir, qəm-qüssə və iztirabda ikən məni yuxu apardı. Çox keçməmiş biri xoş surətli, digəri isə bəd qiyafəli iki nəfərin birinin sağ, o birinin isə sol tərəfimdə oturduğunu hiss etdim.

Əzalarımı başdan-ayağadək ayrı-ayrı iyləyirdilər. Əllərindəki kağızda nə isə yazırdılar. Bir kiçik, bir böyük qutu gətirdilər. Onlara nəsə yığır və ağızlarını möhürləyirdilər. Qəlb, xəyal, göz, dil, qulaq kimi əzaları təkrar-təkrar qoxulayır və bir-birləri ilə pıçıldaşırdılar. İkinci, üçüncü dəfə qoxulayır, sonra nə isə yazır, qutulara yerləşdirirdilər.

Hərəkətsiz dayanmışdım ki, oyaq olduğumu hiss etməsinlər. Lakin mənim gəlir və çıxarlarımı təftişlərindəki ciddiyyətdən anladım ki, yaxşı və pis əməllərimi qeyd edirlər. Hiss etdim ki, həmin xoş surətli fərd mənim xeyirxahımdır. Bir-birləriylə pıçıltı və söhbətlərindən məlum olurdu ki, o, mənim tövbəmin, hansısa yaxşı əməlimin pis əməli sildiyini dəlil gətirib, bəzi pis əməllərimi qeyd etməyə qoymurdu. Axı ikisi də misi qızıla çevirir. Bu cəhətinə görə onu sevdim.

İşlərini qurtarıb yazdıqlarını lülə şəklində burub, boynumdan asdılar. Ağzı bağlı qutuları bir kisəyə yerləşdirib, başımın üzərində qoydular, Sonra

---

1“Ali-imran” surəsi, ayə 18.

2“Bəqərə” surəsi, ayə 57.

3“Zümər” surəsi, ayə 56.

bədənimin ölçüsündə yeddi ərintidən hazırlanmış qəfəs gətirib, məni onda yerləşdirdilər. Onun yivlərini, yaylarını sıxdılar, bərkitdilər. Yavaş-yavaş qəfəs daraldı. Elə bir həddə çatdı ki, məni sıxdı, nəfəsim kəsildi, səsimi çıxara bilmədim. Onlar, qəfəs bədənimin formasını alanadək yivləri sıxdılar. Qəfəs kiçik samavar təndirdi tək daraldı. Bütün sümüklərim qırılıb, xırdalaşdı. Bədənimdən qara neft tək yağ çıxırdı. Huşum başımdan çıxdı, heç nə dərk etmədim.

## HADİNİN İZAHLARI

Bir müddət sonra ayıldım. Hadi başımı dizləri üstə almışdı. Dedim… Hadi, bağışla, ayağa durmağa halım yoxdur. Bu ədəbsizliyə görə üzr istəyirəm. Əzalarım qırılıb, rahat nəfəs ala bilmirəm.

Sözüm qırıq-qırıq, səsim zəif, göz yaşlarım cari idi. Elə bil, Hadinin ayrılığından gileyli idim ki, o olmayanda ilk sıxıntını gördüm.

Hadi təsəlli üçün dedi… Gördüyün çətinliklər bu aləmin ilk mənzilinin zərurətlərindəndir. Hamı buna mübtəla olur və təkcə sənə aid deyil. El ilə gələn bəla bayramdır. Hər nə oldu, keçdi.

Ümid var, bundan sonra sənin üçün belə çətinliklər qarşıya çıxmasın. Həm də ki, bu aləmin bütün çətinlikləri sizin özünüzdəndir. Yeddi ərintidən hazırlandığını güman etdiyin qəfəsin tərkibi insanın pis əxlaqındandır. Bu əxlaq öz qəzəb dişiylə ətrafdakıları əridib, maddi dünyada insan ruhunu bürüyüb. Bu dünyada da qəfəs şəklində zahir olub. İnsanın pis əxlaqının əsli üç şey olduğundan qəfəs min ərintidən də ola bilər…

Birincisi, tamah, özünü sevmək, özünü bəyənmək, paxıllıqdır ki, insanı behiştdən çıxardı.

İkincisi, şeytanı Allah dərgahından qovulmuşlardan etdi.

Üçüncüsü, Qabili Cəhənnəmə apardı.

Lakin bu üç rəzil xasiyyət min qol budaq atır. İnsan üçün az-çoxluğunun xeyli fərqi vardır.

Hadi şirin söhbət əsnasında əlini mənim əzalarıma çəkir, bununla da əzilmiş əzalar düzəlir, dərdlər şəfa tapırdı. Onun mehribançılığından vücuduma qüvvət, yeni bir həyat üfürülürdü.

Çöhrəm, əzalarım bulanıqlıq və küdurətdən paklanmışdı, şəffaflıq, işıq almışdı. Anladım ki, həmin sıxıntılar insanın paklanması üçündür. Bulanıqlıq, küdurət, şər bu sıxıntılar vasitəsi ilə çıxarılırmış. Qara neftə oxşarı yada salın. İmamların (ə) təbirincə, ana südü burundan gələr. Amma südün əsli heyz qanıdır və bu qan qara və murdarlar qismindəndir. Qara, çirkin görünməsi uyğun gəlir.

Hadi dedi… Kisəni aç, görüm nə var.

Ağzı bağlı qutuları gördüm. Bəzisinin üstündə “filan mənzilin ehtiyatı”, bəzisində “filan mənzilin xətər və çətinliyi” yazılmışdı.

Müəyyən mənzillərə aid qovluqlar yerində açılmalı və məqsədi bilinməli idi.

Soruşdum… Bu qutu nədir? Dedi… Çirkin və gözəl əməllərinin baş verdiyi ömür saatları, günləri, gecələridir. O vaxtlar ötdükdən sonra sədəf tək ağzı çırtladı və əməlləri mıncıq tək boynunda saxladı. İndi isə ağzı bağlı qutu surətində gəlib.

Dedim… Boynumdan asılan nədir?

Dedi… Əməl naməndir. İşin sonunda, hesab günü xərcin, gəlirin hesabı təsnif olunacaq. Bu dünyada hələ ki, gərəyin deyil.

"Biz hər insanın əməl naməsini boynundan asar və Qiyamət günü bu namə açıq şəkildə qarşısına qoyular."[1]

## CÜMƏ AXŞAMI AİLƏ İLƏ GÖRÜŞ

Hadi dedi… Sənin səfər ehtiyatını az görürəm. Bir neçə cümə burada dayanmalısan. Ola bilsin ki, qürur evindən (dünyadan) dostların bir şey göndərsinlər. Peyğəmbər (s.ə.v.v) buyurmuşdur… "Səfərdə ehtiyat nə qədər çox olarsa, bir o qədər yaxşıdır." Mən sənin üçün dünya soltanından sənəd, icazə gətirmək üçün getməliyəm. Həftə arası bir xəbər olmasa, cümə axşamı ailənin yanına get, bəlkə, rəhmət, bağışlanmaq tələbinlə səni yada salsınlar.

Hadi getdi və mən gözləməyə başladım. Amma yerim yaxşı idi. Otaq əlvan, gözəl naxışlı xalçalarla döşənmişdi. Cümə axşamı yetişdi, amma bir xəbər olmadı. Hadinin sifarişinə əsasən quş tək mənzilimə getdim. Bir ağacın budağına qondum və bir yerə yığışmış arvadım, övladlarım, yaxın dostlarımın söhbətlərinə qulaq asmağa başladım. Mənim üçün xeyir istəyirdilər. Aş, plov süfrəsi açmışdılar. Rovzəxanları vardı, "Fatihə" oxuyurdular. Amma mən gördüm ki, onların işlərinin mənim halıma faydası yoxdur. Çünki onların əməlləri öz abırlarına, adlarına görə idi. Buna görə də doyurmaq üçün bir dənə də ac adam dəvət etməmişdilər. Çağrılmış adamların da məqsədi mənim üçün rəhmət diləmək, Hüseyn ibni Əliyə (ə) ağlamaq deyil, yalnız yemək və başqa şəxsi məqsədlər idi! Onlara olunan xidmətdə qüsur tapılsaydı ölünü də, dirini də söyərdilər. Əgər ailəm və qohumlarım ağlayırdılarsa, fəqət özləri üçün ağlıyırdılar ki, niyə qəyyumsuz, başsız qalıblar, bundan sonra onların yaşayış xərcini kim ödəyəcək. Dünya fikrinə elə qərq olublar ki, nə mənim ölməyimi, nə də öz axirətlərini yada salırlar. Guya bu kasa təkcə mənim başımda sınıb və onlar üçün olmayacaq. Guya, Allah (nəuzu billah) mənim ölümümlə onlara zülm edib ki, bu işlər meydana çıxıb.

Mən ümidsiz halda qəbiristana, öz mənzilimə qayıtdım.

## ZİYARƏTLƏRİMİN MÜKAFATI

Ailədən gördüyüm vəfasızlığa görə az qaldım onlara qarğış edəm, amma... öz-özümə dedim ki, bir dərd onlara bəsdir, dərd dərd üstündən olmasın.

---

1"İsra" surəsi, ayə 13.

Qəbrin çatından daxil oldum. Gördüm Hadi gəlib, alma dolu səbəti hücrənin ortasına qoyub. Soruşdum ki, bu haradandır?

Hadi dedi… Bir kəs buradan keçirdi, gəlib “Fatihə” oxudu. Allah rəhmət etsin, vaxtında gətirdi.

Gördüm Hadi özü hücrəni bəzəməklə məşğuldur, mis, qızıl və gümüş oturacaqlar düzəldir və tavandan günəş tək şəfəq saçan qəndil asır.

Dedim… Axı biz yol üstəyik, bu hücrəni nə üçün bu sayaq bəzəyirsən?

Dedi… Eşitmişəm ki, qəbirlərin ziyarətinə getdiyin İmam övladları və onların ataları, gecə namazında adını çəkdiyin, qəbirləri üstə “Fatihə” oxuduğun alimlər sənin axirətə gəlişindən xəbərdar olublar. Sənin haqqını ödəmək üçün görüşünə gələcəklər.

Dedim… Nə gözəl tovfiq və səadət! Ailə, qohumlarımdan üz vermiş qəm-qüssə unuduldu. Bundan min dəfələrlə xoş xəbər qazandım. Mən və bu qabiliyyət?! Mən və bu səadət?!

Dedim… Hadi, hücrə kiçikdir.

Dedi… Düzdür, kiçikdir, amma onların gəlişi ilə genişlənəcək.

Birdən onlar daxil oldular. Necə nurlu surətlər, nə cəlal və əzəmət! Hər kəs öz mərtəbəsində əyləşdi. Hamıdan irəli Əbülfəzl (ə) və Əli Əkbər (ə). Hər ikisi böyük bir taxtda oturdular. Lakin onlar döyüş paltarında idilər. Mən bir zərrə zəhmətsiz, inadsız, düşmənsiz aləmdə belə bir paltara təəccüb etdim.

Mən, Hadi və onlarla gələnlər ayaq üstə durub onların camal və cəlalında məhv olmuşduq. Nəzərimi cəlal sahiblərinə dikmişdim.

Əbülfəzl (ə.s) Hadidən soruşdu ki, atamdan keçid sənədi almısanmı? Ərz etdi, bəli. Bu ayəni buyurdu… “Ey cin və insan tayfası! Əgər göylərin və yerin ətrafından kənara çıxa bilərsinizsə, çıxın. Siz yalnız (Allahın əta etdiyi) qüdrət və qüvvətlə çıxa bilərsiniz.”[1]

Sonra lütf edib mənə buyurdu… Vilayət sultanı atam, həmin sənəd isə sənin nicatındır. Müjdə olsun sənə, doğru yolu tutmaqda!

Mən şövq və təşəkkürdən torpağı öpdüm, ayağa qalxdım, belə bir görüşdən duyduğum sevincdən göz yaşlarım axdı. Yanımda durmuş Həbib ibni Məzahir pıçıltıyla dedi… Qarşıdakı yolun çətinliklərindən keçəcəyindən məyus olma. Çünki bu əzəmət sahibləri və onların məsum ataları səni unutmamışlar. Onların gəlişi atalarının işarəsi ilə olub. Onların şiələr və dostlara yardımı yalnız işin sonunda olacaq. İndiki görüş isə yalnız sənin arxayınlığın, şadlığın üçün idi. Zeynəb (ə.s) da sənə salam göndərdi. Buyurub ki, sənin qardaşımın ziyarətinə piyada getməyini, bu ziyarətin çətinliklərini, aclığını, susuzluğunu, yol boyu axıtdığın göz yaşlarını unutmarıq.

Dedim… Mənim və Allahın salamı, rəhməti və bərəkəti sənə və o Həzrətə olsun!

Soruşdum ki, burada ki döyüş yoxdur, bəs nə üçün ağalar döyüş paltarındadırlar?

---

1“Ər-Rəhman” surəsi, ayə 33.

Gördüm Həbibin rəngi dəyişdi, gözləri yaşla doldu və dedi… Kərbəlada bu iki nəfərin əzm və iradəsi elə bir həddə idi ki, təklikdə qoşun dəryasını tar-mar edib Cəhənnəmə vasil edə bilərdilər. İlahi təqdir, yazı səbəbindən mümkün olmadı ki, öz polad iradələrini göstərsinlər. O vaxt sinələrini qübar tutdu, sıxıldılar, indiyədək də belədirlər. Ona görə ricət dövrünü gözləyirlər ki, ürəklərinin qübarını dağıtsınlar. Döyüş paltarı kimi görünən həmin dərddir, amma sən onu hiss etmisən.

Birdən durub getdilər. Hadi ilə tək qaldıq. Hücrə əvvəlki tək kiçildi, daraldı. Hadiyə dedim ki, mən bir də ailə və övladlarımın yanına getmərəm. Çünki onların xeyirxahlığından əlimi üzmüşəm. Mənim adıma bir iş görsələr də, əməllərinin canı öz dünyaları üçündür. Mənə qəm artırmaqdan başqa bir nəticəsi yoxdur. Olanlarıma qənaət edər, çatdığım xətərlərdə bu əzəmətli şəxslərin mərhəmətini gözləyərəm, intizarı asan qəbul edərəm.

Hadi dedi… İndi sənin bir şeyə ehtiyacın qalmayıb. Yetkinliyin ilk üç ilinin məlumatlarına aid olan ilk üç mənzilin qorxusu yoxdur. Yetkinliyin başlanğıcı olan on beş yaşdan (zəif əql, güclü şəhvət, həvəslər səbəbindən vacib əmrlərə müxalifətdə, haramların tərkində) ağıl qüvvələrinin inkişaf və möhkəmlənmə zamanı olan on yeddi yaşadək cəza əhəmiyyətsizdir.

Həzrət Haqq əqli icad edərkən buyurdu… "Ey əql, sənə görə cəzalandırıram, sənə görə mükafat verirəm."

Mükafat və cəza üçün ölçü əql oldu. Bu səbəbdən axirət dünyasının ilk üç mənzilində yetkinliyin başlanğıcındakı səhlənkarlıqlara görə elə bir xətər yoxdur. Əgər olsa da, tezliklə bitər. Demək, mənə elə bir ehtiyacın yoxdur. Mən əvvəlcədən dördüncü mənzilə gedib, orada səni gözləyəcəyəm. Sabah yükünü dalına alıb, üzü qibləyə olan əsas yolla hərəkət edərsən ki, mənə çatasan.

Dedim… Ey Hadi, sən özün bilirsən ki, sənin ayrılığın mənim üçün çətindir. Bu yol düz, geniş, xətərsiz olsa da, təklik və yoldan xəbərsizlik dərmansız bir dərddir.

Dedi… Bu üç mənzildə tək qalmağının çarəsi yoxdur. Axı dünyada da mən həmin üç ildə səninlə olmamışam, sonra səndə doğulmuşam, vücuda yetmişəm. Çünki mənim təbiətim illiyyindəndir ki, sənin inkişaf, hidayətinə sərf olunub. Bu qüsur da özündəndir.

"Məni yox, özünüzü danlayın."[1]

Sonra uçub getdi və mən tək qaldım. Onun sözlərini fikirləşdim və gördüm ki, bütün dedikləri həqiqətdir. Yetkinliyin ilk üç ilində işlənən heyvani bir ağıldır. İnsani ağıl isə təklikdə bir şüa kimidir. Hikmət sahiblərinin təbirincə, demək olar ki, təkcə əql, ağlı qəbul etmək istedadı, əqlin toxumudur. Əlbəttə, Hadisiz olmuşam. Dediyim sözlərə, verdiyim vədələrə etinasız olmuşam, bivəfa olmuşam. Təkəbbür, eqoistlik məndə hakim olub. Xüsusilə, tələbəlikdə, elmin ilk mərhələsində bu barədə

---

1"İrahim" surəsi, ayə 22.

deyilib… Elm üç mərhələdir, əvvəli təkəbbür. Belə ki, nə Hadi olub, nə Əbül-vəfa, nə Əbu-turab. Tək olmuşam, tək də getməliyəm.

"Sən Allahın qanunlarında əsla dəyişiklik tapa bilməzsən!"[1]

Birini anladın, o biri də belədir. "Nə üçün", "niyə" isə anlamazlıq dəlilidir.

## ZƏHMLİ ƏBÜL-HÖVL

Qalxdım, torbamı dalıma atıb, yenidən yola düşdüm. Yol tər-təmiz, daşsız-kəsəksiz idi. Hava yaz havası tək, mən də qüvvəli və təravətli! Böyük şövqlə məhbubum gülüzlü, vəfalı Hadinin görüşünə tələsirdim. Günün yarısınadək sürətlə getdim. Hava yavaş-yavaş istiləşdi. Yorğunluq, susuzluq başladı. Yol da daraldı, tikanlı, kol-koslu oldu. Dağın ətəyi ilə yuxarı qalxırdım. Öz tənhalığımdan üşənirdim. Qəfildən arxaya çevrilib, kiminsə mənə tərəf gəldiyini gördüm. Əvvəlcə sevindim ki, əlhəmdulillah, tənha qalmadım.

Gəlib mənə çatanda gördüm ki, qara, uzun boylu, qalın dodaqlı, iri dişləri bayırda, enli burunlu, heybətli və üfunətli bir şəxsdir. Mənə salam verdi, amma "l" hərfini izhar etmədi. Eləcə də "sam əleykə". "Sam əleykə" düşmənçilik bildirdiyindən mən şəkkə düşdüm. Eybəcər qiyafəsindən də ədavətli olduğu duyulurdu. O da ola bilərdi ki, "l" hərfinin tələffüzündə süstlük edib. Mən ehtiyat üçün "əleykə" deməklə kifayətləndim. Soruşdum… Məqsədiniz hara getməkdir?

Dedi… Səninləyəm.

Hansı ki, mənimlə olmasına razı deyildim. Ondan bərk qorxmuşdum. Soruşdum… Adın nədir?

Dedi… Səninlə bir doğulmuşam, adım cəhalətdir, ləqəbim pozğun, ayamam Əbül-hövl (qorxu, təlatüm atası)! İşim fitnə-fəsad törətməkdir.

Bu dəhşətli adların hər biri məni qorxutdu. Düşündüm ki, əcəb yoldaş tapdım, heyf deyildimi tənhalıq. Soruşdum… İki yol ayrıcına çatsaq, lazım olanını tanıyacaqsanmı?

Dedi… Bilmərəm.

Dedim… Mən susamışam, yaxınlıqda su varmı?

Dedi… Bilmərəm.

Dedim… Mənzilə çox qalıb, yoxsa az?

Dedi… Bilmərəm.

Dedim… Var olmaq bilməklə eynidir, nə üçün bilmirsən?

Dedi… Onu bilirəm ki, ömrünün əvvəlindən kölgə tək səninlə gəzmişəm və Allahın tovfiqi, köməyi olmasa, səndən ayrılası deyiləm.

Öz-özümə dedim… Deyəsən bu həmin şeytandır ki, vəsvəsələri, yoldan azdıran pıçıltıları ilə xətalar etmişdim. Xudaya, əcəb düşmənlə rastlaşdım, rəhm et!

---

1"Əzhab", surəsi, ayə 62.

Mən qabaqda gedirdim. O isə on addım aralı arxamca gəlirdi. Yol üzüyuxarı idi. Dağın başına çatdım, istirahət üçün oturdum. Cəhalət mənə çatıb dedi… Yorulmusan. İndi hər beş fərsəx (bir fərsəx altı kilometrdir) yolu sənin üçün bir fərsəx edərəm ki, mənzilə tez çatasan.

Dedim… Görünür, bu nadanlığınla yanaşı möcüzən də varmış.

Dedi… Gəl yolun ağlığına bax. Kaman tək qövs şəklindədir. Onun uzunluğu beş fərsəxdir. Bu qövsün vətəri (qövsün uc nöqtələrini birləşdirən parça) kamanın ipi yerindədir. Özün fikirləş ki, kamanın ipi onun özündən nə qədər qısadır. Həndəsəyə görə qövs çevrənin yarsından böyük olduqca vətər qısalır. Biz bu qövs şəklində olan yolun vətəri ilə kəsə getsək, baş yola qədər bir fərsəxdən artıq olmaz. Hansı ki, baş yol özü beş fərsəxdir. Ağıllı adam qısa yolu qoyub, uzunu seçməz.

Dedim… Baş yol gediş-gəlişin çoxluğuna görə baş yol olub. Bəs bu uzun yolu seçən adamlar dəlimi olublar? Aqillər deyiblər ki, yolu yolçular kimi ket.

Dedi… Necə də ağılsızsan! Axmaq şairi aqillərdən sayırsan və özünü ona tabe edirsən. Hansı ki, onun səhv etdiyini özün də görürsən. Sözsüz ki, o yolu seçmiş yolçuların malı, yükü, arvad-uşağı, nəqliyyatı və s. olub. Bu kəsə yolun, vətərin başlanğıcındakı çökəklik onlara mane olub. Amma mən və sən kimi yurdsuzlara bu faydalı yolu tərk etməyə nə mane ola bilər?

Mən axmaq onu xeyirxah bilib, dərə ilə enməyə başladım. Digər tərəfdən yuxarı qalxdıq. Dərə ilə bir az getməmişdik ki, daha dərin bir dərəyə, onun ardınca əvvəlkindən də dərininə düşdük. Hamısı tikanla, daş-kəsəklə, yırtıcılarla, sürünənlərlə dolu. Hava şiddətli isti, dil-dodaq qurumuş, yorğunluqdan ağız açılı, ayaqlar yaralı, ürək qorxudan lərzədə, bir yandan da düşmənin məsxərəsi! Cəhalət istehzayla mənə gülürdü.

## ƏBU CƏHLİN QARPIZLARI

Uzun müddətdən sonra, min bir əzabla baş yola çatdıq. Hər addımı bəlalarla dolu on fərsəx yol gəlmişdik. Oturub dincələndən sonra, Cəhalətə qarşı olan dərin nifrətlə dedim… Ey kaş səndən şərqlə qərb arası qədər uzaq olaydım!

O da məndən kənarda durdu. Qalxıb yola düşdüm. Bir yandan susuzluq, bir yandan da yorğunluq! Cəhalət də uzaqdan-uzağa ardımca gəlirdi. Yoldan dörddə bir fərsəx aralı çəmənlik var idi. Bu yerdə Cəhalətin hiylə caynağına keçə bilərdim. Özünü qaçaraq mənə çatdırdı və dedi… Orada su var, əgər susamısansa, gedək su içək.

Nə qədər cəhd etdimsə qulaq asmayım, susuzluq və yorğunluqdan təslim oldum. Yəqin ki, su olmasaydı ot bitməzdi. Amma çəmənliyə yaxınlaşanda gördüm ki, burada heç zaman su olmayıb. O qədər daş-kəsək var idi ki, yerimək mümkün deyildi. Burada xeyli ilan qıvrılıb yatmışdı. Əslində yaşıl görünən həmişəyaşıl meşə ağacları imiş. Məyus olub baş yola qayıtdım. Az

sonra qarpızla dolu düzənliyə çatdıq. Cəhalət cəld birini kəsib, yeməyə başladı. Məni dəvət edib dedi… Qarpızdan ye, susuzluğun yatsın.

Dedim… Bu kiminsə malıdır və başqasının malını onun razılığı olmadan yemək olmaz.

O yeyə-yeyə, qarpızın suyu ağzından saqqalına, sinəsinə tökülə-tökülə başını qaldırıb dedi… Ay müqəddəs, birincisi, çox güman ki, bunlar özbaşına bitib, kimsənin deyil. Lap elə bir kəsin malı olsa da, yolçunun haqqını həqiqi malik, Müqəddəs Şare (Peyğəmbər) qərar verib. Sonrası, sənin halın susuzluqdan həlak olmaq üzrə, iztirardadır.

"Əlacsız qaldıqda zor işlətmədən, həddi aşmadan bunlardan yeməyə məcbur olan kimsə üçün bir günah yoxdur. Allah bağışlayan və mehribandır."[1]

Lap sonrası isə bura vəzifə evi, dünya deyil.

Yavaş-yavaş ağlım çaşdı. Qarpızın birini götürüb kəsdim. Qarpızdan dişləyib dəhşətə gəldim. Qarpız canavarkökü (akonit) tək acıydı. O qədər acı idi ki, dilim, ağzım yaralandı. Qarpızı atıb dedim… Bu ki, Əbu Cəhl qarpızıdır.

Dedi… Yox, ola bilsin ki, biri acı olub.

Başqasını daddım, o da zəhrimar kimi idi. Cəhalət isə əvvəlki tək yeyir, çox şirindir, deyirdi. Yaxınlaşıb onun yediyi qarpızdan bir az ağzıma qoydum. O hamısından acı idi.

Dedim… Ay evi yıxılmış, bu zəhrimarı necə yeyirsən? Üstəlik deyirsən ki, şirindir!

Dedi… Doğru deyirsən. Amma mənim adım Cəhalətdir və Əbu Cəhl qarpızı mənim zövqümə görə şirindir, mənə münasibdir.

Bu vaxt gözlənilmədən bir it üstümüzə cumdu. İtin ardınca əlində çomaq bir şəxs, ağzı söyüşlə dolu bizi vurmağa tələsirdi. Cəhalət bir göz qırpımında özünü baş yola çatdırdı. Amma mən nə qədər qaçsam da, canımı qurtara bilmədim. İt mənə çatdı və mən qorxu içində yerə yıxıldım. İtin sahibi özünü yetirib mənə doyunca çubuq çəkdi. Nə qədər fəryad etdimsə ki, mən qarpız yeməmişəm, faydası olmadı. Dedi… Əlini başqasının malına uzadandan sonra onu yeməklə, kəsib yerə tökmək arasında fərq yoxdur!

Sözün qısası, min dəfə can verib, çubuq yeyəndən sonra onun əlindən xilas oldum. Özümü yolun ortasına sürüdüm. Ağzımın yaralarından, əzalarımın sınıqlarından, yorğunluqdan, susuzluqdan, eləcə də Hadinin fərağından nalə çəkib ağlayırdım.

İşini görüb, arzusuna çatmış düşmənim kösöv, məndən aralı oturub, gülümsünür, "sənin Hadinin əlindən nə gələr axı!" deyirdi. Davam etdi… Axı dünyada əzab-əziyyət toxumunu mənimlə əkmisən. Dünya axirət üçün əkinəcək, axirət isə məhsul götürmə günüdür. Yoxsa Quranda oxumamısan ki, "hər kəs zərrəcə pislik etsə, onu görəcək."?[2]

---

1"Bəqərə" surəsi, ayə 173.
2"Zəlzələ" surəsi, ayə 8.

Aqillərin dediyini eşit…

İnan kim nə edir, özünə edir,
Yaxşı səadətə, pis oda gedir.

Məgər bu dəlillər və Quran ayələrinə qarşı Hadinin əlindən nə gələr? İnşallah, o mənzildə ki Hadi səninlədir, mən də səninləyəm. Özün görəcəksən ki, başına nə bəlalar gələcək və Hadi nəfəsini belə çəkə bilməyəcək. Özü sənə demədi ki, günah etdiyin zaman səndən qaçar, tövbə edəndən sonra yanına qayıdardım?! Peyğəmbər buyurub… "Mömin möminlik halında zina etməz." Özün de, Hadi ilə yoldaşlığın faydası nədir?

Bu məlun nə məlumatlı bəla imiş! Hadinin zikrindən də dayandım. Torbamdan bir alma çıxardıb yedim. Əlimin yaraları sağaldı, gücə gəldim. Qalxıb, yola düşdüm.

## BEHİŞTİ XATIRLADAN ŞƏHƏRDƏ

İki yol ayrıcına çatdım. Sağ tərəfə gedən abad bir şəhərə aparırdı. Xaraba bir kəndə uzanmış soldakı yolu qoyub, sağdakını seçdim. Orada yola baxan şəxsə dedim… Arxamca gələn qara, bu gün məni çox incidib. Mümkünsə, onu ardımca buraxmayın.

Dedi… O sənin kölgən kimi səndən ayrılmaz. Amma bu axşam səninlə olmayacaq. Onlar sol tərəfdəki xaraba kənddə dayanacaqlar. Ola bilsin ki, sonra az incitsinlər.

Şəhərə daxil oldum. Burada nələr var idi! Ali imarətlər, axar çaylar, gözəl çəmənliklər, meyvəli ağaclar, iti ağıllı xidmətçilər, bəlağətli natiqlər, xoş nəğmələr, pak yeməklər, dadlı şərbətlər! Qorxulu biyabanlarda Cəhalətdən çəkdiyim əziyyətlərdən sonra bura əbədi behişt kimi görünürdü. Əgər Hadiyə məhəbbət cazibəsi olmasaydı, bu şəhərdən çıxmazdım.

Qovağsız bir bucaq, şipşirin bulaq,
Qəlbi tirək vuran munisi-müşfiq
Hər zaman olarsa əgər qismətin
Nə gözəl hədiyyə, nə gözəl tovfiq!

Burada əvvəllər tanıdığım dini elmlər oxuyan tələbələrdən bir neçəsi ilə görüşdüm. Gecəni istirahət edib, sübh tezdən havası narınc gülünün ətrini almış şəhər kənarına çıxdıq. Ötən günün əhvalatlarını bir-birimizə danışırdıq. Bu yolun müsafirləri həmin mənzildə bir-birlərinin halından xəbər tuturdular. Hərəkət zamanı az olur ki, biri o biri ilə rastlaşsın.

"O gün onların hər birinin istənilən qədər işi olacaqdır (başqasının halı yada düşməyəcək)."[1]

Qaraların əlindən qurtulduğumuz üçün şükr edirdik.

---

1"Əbəsə" surəsi, ayə 37.

“Allah təala Behişt əhlinin bir-birləri ilə söhbətlərinə aid buyurur… onların sözü Allaha həmd və təşəkkür söyləməkdir. Bütün bu əbədi nemətlər dünyada qısa müddət ibadət və bəndəlik müqabilində əta olunmuşdur.”[1]

Qısası, bu şəhərdə bütün hiss üzvlərimiz öz ləzzətli qidasını aldı. Ləzzətli xörəklər, xoş ətirlər, gözəl təsvirlər, şirin nəğmələr, ağzımızın, burnumuzun, gözümüzün, qulağımızın qidası oldu. Xəyalımız nalayiq düşüncələrdən uzaq, qəlbimiz şad, lətif hurilər qoynunda!

“Belə bir gün üçün çalışmaq lazımdır.”[2]

“Tələsin xeyir işlərə” (həyyə əla xəyril əməl) məzmununda hərəkət işarəsi verildi. Torbalarımızı dalımıza alıb, yola düşdük. İki yol ayrıcına çatdıq. Xaraba kəndin yolu da buraya birləşirdi. Düşmənlərimiz qara tüstü tək ətrafımızda göründülər. Oradakı müvəkkildən soruşdum… Mümkündürmü ki, bu qaralar bizimlə olmasınlar?

Dedi… Bunlar sizin heyvani nəfslərinizdirlər. Şəhvət və qəzəb qüvvəsinə malikdirlər. Sizdən ayrılmaları mümkün deyil. Lakin onların rəngləri müxtəlifdir-xalis qara, ağ-qara, xalis ağ. Adları da müxtəlifdir-əmmarə, ləvvamə, mütməinnə. Ağ mütməinnə sizin üçün çox xeyirlidir və onunla ali dərəcələri fəth edərsiniz. Bu Allahın sizə verdiyi nemətdir. Lakin siz öz küfrləriniz ilə ondan məhrum olmusunuz. Nə iş görmüsünüzsə, maddi dünyada görmüsünüz. Əkdiyiniz toxumları orada əkmisiniz. Bu bahar fəslində böyüyüb boy atması sizin ixtiyarınızda deyil.

“Onu bitirən sizsiniz, yoxsa Biz”?![3]

Nalə çəkən özündən çəkir, başqasından yox!

## ALLAH TƏKƏBBÜRLÜLƏRİ ALÇALDIR

Qaralar bizə çatdılar və hər kəs öz qarası ilə yola düşdü. Bir-iki nəfər öz qarası ilə geridə qaldı, bir-ikisi qabağa düşdü. Bir sözlə, ayrıldıq. Mən də öz qaram ilə gedib bir dağın ətəyinə çatdım. Yol ağır, daş-kəsəkli idi. Dağ aşağı uzanan dərə isə dərin də olsa, hamar idi. Dərədə hava tutqun olduğundan, ürəyimdən keçdi ki, dağın yüksəkliyi ilə gedəm. Qara mənə çatıb, fikrimi təsdiq etdi. Dedi… Havanın tutqunluğundan savayı dərədə vəhşi heyvanlar, ilanlar da var. Dağın başından isə ətrafı seyr edə bilərsən.

Maddi dünyada, tələbəlik illərində yuxarıdan getmək, yanındakılardan üstün olmaq istərdik. İndi də dağ yuxarı getdik. Dağın zirvəsinə yol olmadığından çarəsiz qalıb, dağın arxasına üz tutuduq. Heç burada da rahat yol olmadı. İki-üç dəfə daşlar ayağımızın altından qaçdı və yıxıldıq. Bir neçə addım aşağı sürüşdük, az qaldıq ki, dərəyə düşək. Tikanlardan, daşlardan yapışıb özümüzü saxladıq. Əlimiz, ayağımız, kürəyimiz yaralandı. Burnum

---

1“Yunus” surəsi, ayə 10.
2“Saffat” surəsi, ayə 61.
3“Vaqiə” surəsi, ayə 64.

daşa dəyib sındı. Qarama dedim… Əcəb tamaşa, səyahət oldu! Kaş dərənin içi ilə gedərdik.

O mənə gülüb dedi… Dünyada təkəbbürlü olanı Allah alçaldar. Hər kəs üstünlük, ucalıq axtarsa, burnu torpağa sütülər.

"Öz cəzanı çək, çünki sən dünyada izzət, üstünlük tələbində idin!"[1]

Çətinliklə də olsa, bu tordan xilas oldum. Amma bədənim yaralandı, ürəyim dərdlə doldu. Bizdən qabaqda gedən biçarə sıldırımdan yıxılıb, dərəyə düşdü. Naləsi göyə ucaldı. Qarası arxasınca gülürdü. O, yerindəcə qaldı.

Çoxlu məşəqqət və çətinliklərdən sonra hamar yola çatdıq. Başqa bir müşkülüm olmadı. Yalnız yorğunluq, susuzluq, yaraların sızıltısı! Qaram dəfələrlə sübut gətirib, məni yoldan çıxartmaq istədi. Könlüm istəsə də, qulaq asmadım. Ona itaət etmədiyimi görüb, arxada qaldı.

## QURAN ƏMRLƏRİ HƏR İKİ ALƏMƏ AİDDİR

Bu minvalla bir bağa çatdıq. Yolumuz bağdan keçirdi. Bir neçə nəfər hovuz kənarında oturmuşdu. Qarşılarında meyvələr var idi. Məni görüb ehtiram göstərdilər. İstədilər ki, oturub, meyvələrdən yeyəm. Dedilər… Biz dünyadan oruc halda köçmüşük. Bu bizə verilən iftardır. Sən özün iftar verdiyindən bu süfrədə sənin də haqqın var. Mən əyləşib, meyvələrdən yedim. Susuzluğum, ağrılarım ötüşdü. Soruşdular ki, bu yolda başına nələr gəldi? Dedim… Əlhəmdu lillah, çətinliklər ötüşdü, sizi görməklə aradan qalxdı. Amma neçə nəfər arxada qaldı. Onları qaraları saxladı. Mənim də qaram çox əlləşdi, qulaq asmadım. İndi arxada qalıb. Ümid edirəm ki, mənə çatmaz.

Dedilər… Sən düşündüyün kimi deyil. Onlar bizdən əl çəkməzlər. Məkr və yalanları ilə bizə əziyyət verərlər. Amma qarşıda ola bilsin ki, yolkəsənlər tək, bizimlə vuruşsunlar.

Dedim… Bəs biz silahsız, əliyalın onlarla necə vuruşacağıq? Əgər Darül-qürurda, maddi dünyada silah hazırlasaq, sonrakı mənzillərdə bizə çatdırılar.

"Düşmənləri qorxutmaq üçün bacardığınız qədər qüvvə, döyüş atları tədarük edin."[2]

Dedim… Mən bu ayədən maddi dünya döyüşü üçün silah başa düşmüşəm.

Dedilər… Quran və onun ayələri bütün aləmlər, mənzillər, məqamlara göstərişdir. Onların cəmi, bütün mərtəbələrin məcmuəsidir. Bu kitab axırıncı asimani kitab, onu gətirən isə sonuncu peyğəmbər olduğundan bütün pərdə arxasında olanlar buyurulmuşdur. Necə deyərlər, "bundan o yana kənd yoxdur".

---

1"Düxan" surəsi, ayə 45.
2"Ənfal" surəsi, ayə 60.

Hamımız qalxıb, yolumuza davam etdik. Bol bəhrəli ağacların altından, şırıltılı çayların kənarından, ruh-reyhanlı nəsimdə şadlıqdan məmnun gedirdik. Elə bil Allahın cəmalı təcəlla etmişdi.

## MƏHƏBBƏT ŞƏHƏRİNDƏ

Bir dayanacağa çatdıq. Hər birimiz qızıl, gümüş, bürünc kərpiclərdən tikilmiş ali qəsrlərin hücrələrində yerləşdik. Mənzillərdə hər şey öz qaydasında idi–onların təmizliyi, naxışları, genişliyi göz oxşayır, ağılı heyran edirdi. Xoş surətli, xoş libaslı, xidmət üçün ətrafda dövrə vuran xidmətçilər var idi.

"Onların dövrəsində həmişəcəvan oğlanlar olacaqdır. Onları gördükdə səpilmiş inci olduqlarını zənn edərsən. Hara baxsan nemət və böyük bir mülk görərsən."[1]

Onların bizə xidmət etməsindən xəcalət çəkdim. Gözüm böyük bir güzgüyə sataşdı. Özümü onlardan çox-çox gözəl, cavan, dəyərli gördüm. Vüqar, yüksəklik hissi məni bürüdü, öz cəlalıma vuruldum.

Axşam düşdü. Ağacların budaqlarının başından asılmış min lampalı çıraqlar yandı. İşıq yarpaqlar arasında elə bərq vururdu ki, həddi-hüdudu yox idi. Bağlar, cah-cəlallı qəsrlər gündüzə nisbətən daha işıqlı idi. Təəccüb içində özümə dedim… Xudaya, bu qədər işığı yandıran necə mənbədir? Eşitdim kimsə ayə tilavət edir…

"Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər. Taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə sanki bir parlaq ulduzdur. O çıraq nə şərqə, nə də qərbə meyl edən mübarək bir zeytun ağacından yandırılır. Onun yağına od toxunmasa belə, az qalır ki, öz-özünə alışsın. O, nur üstündən nurdur."[2]

Başa düşdüm ki, bu nur Mühəmməd ailəsi şəcərəsindəndir. Müsafirlərin dayanacağı olan bu şəhər məhəbbət şəhəri adlanırdı. Əhli-beyt (Peyğəmbər ailəsi) aşiqləri burada dayanardılar. Bu şəhərin sakinləri, müsafirlər cah-cəlallı qəsrlərdə bəşarət və sevinclə Haqqın zikr və həmdinə, Vəliyyi-mütləqə salam verməyə məşğul idilər. Onların səsi cazibəli və dilruba idi. Biz də əmniyyət və kamal halında sevinc duyurduq. Şəhər qapısının yuxarısında aydın xətlə yazılmışdı…

"Əli (ə) ilə dostluq elə bir savabdır ki, bu savab olarsa, heç bir günah zərər yetirməz."

## AZĞINLARIN ARXASINCA GETMƏSƏK

Baş yol aydın görünürdü. Yolun iki kənarında yaşıllıq, gül-çiçək, reyhanlar, çaylar vardı. Havanın ətirliliyi, fərəhliliyi vəsfə gəlmirdi. Şəhər ətrafından çıxanadək belə idi. Sanki şəhərin gözəllikləri bizi yola salırdılar.

---

1"Dəhr" surəsi, ayə 19, 20.
2"Nur" surəsi, ayə 35.

Sonra yol çətinləşdi, kələ-kötürləşdi, dərənin ortasına endi. Dərə gah sağa, gah da sola burulurdu. Müsafirlərdən qarşıda gedən olmasaydı yolu azardıq. Çünki yol boyu sol tərəfə yollar ayrılırdı. Sol tərəfə burulan dolanbaclardan birində qaralar bizim yolumuza daxil oldular. Qara gözümə dəyəndə onunla görüşün qovğası az imiş kimi ayağım da daşa dəyib yaralandı. Ayağımın ağrısından çətinliklə yeriyirdim. Yoldakı müsafirlər qabağa düşüb uzaqlaşdılar və mən geridə qaldım. Qara yolun sol tərəfi ilə gedirdi. Gəlib, iki yol ayrıcına çatdıq. Burada sol tərəfə bir yol ayrılırdı. Hansı yolla getməli? Qara özünü mənə yetirdi və dedi… Niyə dayanmısan? (Sol tərəfə işarə etdi…) yol budur.

Özü o yolla bir neçə addım atdı və məni çağırdı. Mən qulaq asmayıb, o biri yolla getməyə başladım və oxudum… Qurtuluş və nicat azğınlara zidd olmaqdadır.

Qara nə qədər israr etdisə, onunla getmədim. Artıq bu sahədə təcrübəm vardı. Hər kəs imtahandan çıxmış adamı imtahana çəkərsə peşiman olar. Çox keçmədi ki, dərə qurtardı. Torpaq düzləşdi, çəmənzar oldu. Üçüncü mənzil bağlarının gəzintisi başlandı.

Vəslinin vədəsi yaxın gələcək,
Məhəbbət alovu şölələnəcək.

Verdiyi vədəyə görə Hadi burada məni gözləməli idi. Yerişimi sürətləndirdim. Cəhalət məndən məyus olub, geridə qaldı. Az sonra şəhər darvazasına çatdım. Ruhuma çevrilmiş Hadi ilə burada görüşdük. Salam verdim, görüşüb, qucaqlaşdıq. Vücuduma yeni həyat verildi. Mənim üçün hazırlanmış qəsrə daxil olduq. Burada bütün gözəlliklər toplanmışdı.

İstirahətdən, yeyib-içəndən sonra Hadi soruşdu… Bu üç mənzildə başına nələr gəldi?

Dedim… Əlhəmdu lillah, bütün xətərlər Cəhalət tərəfindən idi. Bunun da səbəbi özümdən idi ki, sənsiz olmuşdum (yetkinliyin ilk üç ilində). Mənimlə olsaydın bu çətinliklər törənməzdi. Xülasə, hər nə oldusa da salamatlıqla ötüşdü. Səni gördüm, dərdim sağaldı, qəmim dağıldı.

Dedi… Bura qədər səninlə olmadığım üçün o, yalan və hiylələrlə səni yoldan çıxarırdı, bundan sonra onun hiylələrini sənə göstərəcəyəm. O daha güclü vasitələrlə səni yoldan çıxarmaq istəyəcək. Bil ki, bundan sonra yoldan kənarda sonu fəlakətli, şiddətli əzablar olacaq. Çünki mənim vücudum vasitəsi ilə sənə hüccət tamamlanır (yəni bundan sonrakı səhvlər bilərəkdən olur).

Daha üzrlü səbəbin qalmır və bu mənzildə özünü müdafiə etmək üçün əsa və qalxandan başqa bir silahın olmayacaq.

## NÖVBƏTİ CÜMƏ AXŞAMI NƏ GÖRDÜM?

Hadi davam etdi… Döyüş vasitələrin azdır. Ailəni görməyə get. Ola bilsin ki, sənin xatirinə bir xeyir iş gördülər və bu müsafirətdə müdafiə vasitələrin artdı.

Dedim… Mən onlardan məyus olmuşam, çünki onlar özlərindən başqa bir şeyi düşünə bilmirlər. Qısası, dirilər ölüləri tez unudurlar, onlardan qəlbləri soyuyur. Ötən həftə hələ məni unutmamışdılar. Əməllərinin niyyəti özləri üçün olsa da, mənim adıma işlər görürdülər. İndi adım da yadlarından çıxıb, onlara heç bir ümidim yoxdur.

Dedi… Hər nə olur-olsun, tez dur yola düş. Çünki Peyğəmbər (s.ə.v.v) buyurub… "Yaxşılıq və xeyir işlərlə ölülərinizi yada salın."

Çox vaxt getməyinlə xatırlanarsan. Ümid var ki, Allah sənin getməyini, onların səni yada salmaları üçün səbəb salsın. Onlardan ümidini üzmüsənsə də, Allahdan ümidini üzməməlisən.

Yaxşı deyiblər… döyməsən qapı arxasından səs gəlməz axı. Bu atalar sözü ona işarə edir ki, hər kəs dözümlə, möhkəm dayanarsa, öz məqsədinə çatar. "Allahın rəhmətindən naümid olmayın. Allah bütün günahları bağışlayandır."[1]

Ailəmlə görüşə getdim. Gördüm mənim vaxtımda olan vəziyyət əksinə olub. Nə evdən bayıra çıxırlar, nə də kimsə onları yada salır. Güzəranları pisləşib, uşaqlar pərişan olublar. Onların halına qəlbim ağrıdı və dua etdim ki, Xudaya, onlara və mənə rəhm et. Ailəm də asudə zamanlarını yada salıb, mənə rəhmət oxudular. Hadinin yanına qayıtdım.

## HURİYYƏ İLƏ GÖRÜŞ

Qəsrin qabağında daş-qaşla bəzədilmiş, qızıl yüyən-yəhərli bir at dayanmışdı. Hadidən soruşdum ki, bu at kimindir?

Gülümsünüb, dedi… Ailən sənin üçün göndərib. Bu, göndərilən rəhmətdir ki, at surətinə düşüb. Bu mənzillərdə, xüsusilə piyada getməyin məşəqqətli olduğu birinci mənzildə atla, süvari getmək çox yaxşıdır. Sənin də öz ailən haqqındakı duan qəbul olundu. Bundan sonra onlar rifah və asayişdə yaşayacaqlar. Görürsənmi, sənin getməyin hamı üçün xeyirli oldu. İnsanlar qəflət dünyasında çox vaxt bir-birləri ilə əlaqə saxlamağın üstünlüklərindən xəbərsiz olurlar. Ona görə də Peyğəmbər (s.ə.v.v) bu mövzuda təkid edib, buyurmuşdur… "Üç gün keçə və bir-birlərinin halını soruşmasalar, onların arasında iman qardaşlığı telləri qırılar."

Bir hücrəyə daxil olduq. Çöhrəsinin nuru hücrəni işıqlandırmış, göz oxşayan bir huriyyə taxt üstə oturmuşdu.

Hadi dedi… Bu sənə əqd olunmuşdur. Bu gecə Vadiyüs-səlamdan sənin üçün gəlmişdir.

---

1"Zümər" surəsi, ayə 53.

Hadi hücrədən çıxdı. Mən huriyyəyə yaxınlaşdım. O, ehtiram göstərib, ayağa qalxdı, əlimi öpdü.

Yanaşı əyləşdik. Dedim… Öz əsl-nəcabətini söylə və mənə necə əqd olunduğunu bəyan et.

Dedi… Cavanlıq vaxtı bir mədrəsədə cümə axşamı bir qadınla mütə etməyin (müvəqqəti evlənməyin) yadına gəlirmi?

Dedim… Bəli.

Dedi… Mənim xilqətim sənin qüsl suyunun damlalarındandır. Mən o qətrədən yaranmışların, bəlkə də üçüncü nüsxəsiyəm.

Dedim… Mən sizin danışığınızdan, şirindilliliyinizdən ləzzət alsam da, istilahatınızla tanış deyiləm. Fikrinizi izah edin.

Naz-qəmzəylə başını aşağı salıb, gülümsündü. İnci dişlərinin nurundan qəsrlər işıqlandı.

Dedi… Mən o qüslün damlalarından yaranmışam. Qalanları əbədi behiştdədirlər və çoxdurlar. O qədər camallı, kamallıdılar ki, onlara baxmağa gözünüzdə tab yoxdur. Yalnız oraya çatanda mümkün olar. Vadiyüs-səlamda onların (huriyyələrin) əbədi behişt nurundan olan şüasından huriyyələr inikas olur ki, hazırda onların camalını görməyə dözümünüz yoxdur. Mən ki, hazırda sizin xidmətinizdəyəm, onların camalının əksi, vücudlarının kiçilmiş mərtəbəsiyəm.

Dedim… İndillahın (Allaha yaxın məqamın) bütün bu xüsusi mərtəbə və məhbubluğunun mütə əməlinin hansı cəhətinə görə olduğunu bilirsənmi?

Dedi… Bu əməlin əsaslı xeyirləri vardır. Daimi izdivacın hüququnu ödəməyə hər adamın gücü çatmır. Əgər belə bir hökm olmasaydı, çoxları zina edər, xeyli fəsadlar törənərdi. Necə ki, Həzrət Əli (ə) buyurdu… "Əgər Ömər mütə əqdini qadağan etməsəydi, həqiqi zalımlardan, bədbəxtlərdən savayı kimsə zina etməzdi." Bundan əlavə, bu işdə imanın iki əsası qorunmuşdur… biri təvəlla-Allah dostuyla dostluq, digəri təbərra-Allah düşməniylə düşmənlik. Əli və onun övladlarının vilayəti, düşmənlərdən bəraət (bizarlıq, nifrət) olmadan, hətta səqəleyn ibadətinə malik olanlar, gecələr oyaq qalıb, gündüzlər oruc tutanlar da qurtuluş üzü görməyəcəkdir. Necə ki, bu məzmunda qüdsi hədislərdə Həzrət Haqq buyurmuşdur və sən məndən də yaxşı bilirsən.

Dedim… Siz hansı mədrəsədə təhsil almısınız ki, ağzınızdan bal tökülür?

Dedi… Siz dünyada olduğunuzdan söz və adları öyrənmək sizə aiddir. Biz isə axirət aləmində doğulduğumuzdan məktəb və mədrəsəmiz yoxdur. Bizim biliklərimiz anadangəlmədir. Bu barədə Xacə Hafiz demişdir…

Nə məktəb oxumuş, nə yazı yazmış,
Hər sözü, sualı öyər nigarım.
Eləcə qəmzəylə hikməti duymuş,
Bil, yüz müdərrisə dəyər nigarım.

Amma mənim kimilərinin müəllimi Vadiyüs-səlam ustadlarıdır. Onların müəllimi isə əbədi behişt müəllimləridir. İkincilərin müəllimi əla Firdovs əhalisi, Firdovs əhalisinin müəllimi isə Haqq-Taaladır ki, Ondan başqa Allah yoxdur.

## BAXIN ZİNAKARLARIN HALINA!

Hadi gəldi və bildirdi ki, hərəkət etməliyik. Qalxıb, ata mindim. Əsanı əlimə alıb, qalxanı çiynimə saldım. Hadi icazə sənədini mənə verdi və hərəkətə başladıq. Şəhərin hüdudlarından çıxan kimi palçıq və bataqlığa düşdük. Yolun hər iki tərəfi heyvanlarla, meymunlarla doluydu. Amma hamısı insan idi-nə bədənlərində tük vardı, nə quyruqları vardı. Boyları hündür idi. Çöhrələri meymun çöhrəsiydi. Fərclərindən (cinsiyyət üzvlərindən) çirk və qan qaynayıb tökülürdü.

Hadidən soruşdum… Bura haradır və iyrənclikləri insan qəlbini bulandıran, nəfəsi kəsən bu heyvanlar nədir?

Dedi… Bura şəhvət diyarı, gördüklərin isə zinakarlardır. Yoldan çıxma, ilişərsən.

Məni dəhşət bürüdü. Atın cilovundan bərk-bərk yapışdım ki, yoldan çıxmasın. Yol düz və hamar olsa da, o qədər palçıqlı idi ki, arabir at dizinədək batırdı. Fikirləşdim ki, nə yaxşı, bu mənzildə mənə at verilib. Allah ailəmə rəhmət etsin ki, onu mənim üçün göndərdilər. And olsun Allaha, doğru buyurublar ki, hər kəs evlənsə, dininin yarısını hifz edib.

"Onlar (arvadlarınız) sizin, siz də onların libasısınız."[1]

Gördüm ki, bu heyvanlardan bəzisi dardan asılıb. Onların cinsiyyət üzvləri dəmir mıxlarla dar ağacına çalınıb.

Bəzilərini bundan əlavə, sim şallaqlarla vururlar. Onlar it kimi səs çıxarırdılar və onlara deyilirdi…

"Allah buyurar… Orada zəlil, məyus vəziyyətdə durub qalın və Mənə heç bir şey deməyin!"[2]

"Kaş günahkarları Allahın hüzurunda başlarını aşağı dikib "Pərvərdigara, gördük, eşitdik. İndi bizi dünyaya qaytar ki, yaxşı işlər görək. Biz tam yəqinliklə inandıq"-deyəndə görəydin."[3]

Elə bu zaman qaraların gəlib çatdıqlarını gördüm. Bəziləri hücum çəkdilər ki, yoldan çıxaq. Bəzi süvariləri qorxudur, bəzilərini məcbur edib deyirdilər ki, yolun kənarı qurudur, yoldan kənara çıxın. Mən görürdüm ki, süvari qaralar yolun kənarı ilə gedir, yol quru olduğundan atlarının ayaq izləri də görünmürdü. Palçığın çoxluğundan adam istəyirdi yolun kənarına keçə. Amma Hadinin sözlərinə qulaq asır və atların cilovunu möhkəm tuturduq ki, yoldan çıxmayaq. Qaraların əli ilə yoldan çıxmış bəzi müsafirlər boğazadək

---

1"Bəqərə" surəsi, ayə 187.
2"Möminun" surəsi, ayə 108.
3"Səcdə" surəsi, ayə 12.

bataqlığa qərq olurdular. Çölə çıxmaq olduqca çətin idi və əzab-əziyyətlə çıxa bilənlərin bədəni qara palçığa bələnmiş olurdu.

Bircə dəqiqədən sonra palçıq onların bədənlərinin ətini hərarətdən suya döndərir, yerə tökürdü. Aydın olurdu ki, bu təkcə palçıq deyil, qır və qətran kimidir. Mən qorxudan atın cilovunu tutmağa ehtiyat edirdim və deyirdim… "Əlhəmdu lillah". Müsafirlərin də ucadan "Əlhəmdu lillah" deyib, Allaha təşəkkür etdiklərini eşidirdim.

## XƏSTƏ GÖRƏNDƏ

Mən Hadiyə dedim… Peyğəmbər (s.ə.v.v) buyurub ki, xəstə görəndə astadan şükr edin ki, o eşitməsin və qəlbi ağrımasın, yanmasın.

Hadi dedi… O dünyaya aid hökm idi. "La ilahə illəllah" əhli zahirən möhtərəm idi. Amma burada cəza günüdür.

Ucadan təşəkkür etmək lazımdır ki, ilahi əzaba mübtəla olanların qəm-qüssələri artsın, bütün örtülülər tədricən zahir olsun. Elə bil, qaranlıqdan işığa, korluqdan görməyə, yuxudan oyaqlığa gedirik. Dünya qaranlıq və kədər içindədir.

"Həqiqətən, şübhəsiz, axirət evi əbədi həyatdır."[1]

Birdən bəlalar artdı, yer şiddətlə silkələndi, hava tutuldu, zülmət çökdü, göydən dolu tək daş yağmağa başladı. Yolun iki tərəfində böyük fırtına qopdu. Fırtınaya düşənlər qorxunc sifətdə, təlaş içində yandırıcı palçıqdan qurtulan kimi göydən ələnən daşlar başlarına dəyir və yenidən mıx tək torpağa sancılırdılar.

Mən bu dəhşətli mənzərənin seyrindən fövqəl-adə heyrətdə yıxıldım. Bədənim əsirdi.

Hadidən soruşdum… Bura haradır, bu bədbəxtlər kimdirlər ki, bu qədər ağır əzaba düçar olublar?

Daşlar göydən elə şiddətlə yağırdı ki, Hadi başım üzərində dayanmış, qorxudan rəngi qaçmış, qüvvəsi sarsılmışdı.

Cavab verdi… Bu həmin şəhvət yeridir. Burada əzab çəkənlər livat (bir-biri ilə cinsi əlaqədə olan kişilər) əhlidir. Tələs, bunların arasından tezliklə çıxaq. Əgər bir kəs bir dəstə adamın hərəkətinə razı olsa, onların arasına daxil olsa və oradan çıxmasa, həmin adamlardan hesab olunacaq.

Dedi… İnsan şəhvətindən bu hala düşmüş yolun ortasındakı palçıq elə yapışqandır ki, ata sürətlə getməyə macal verməz.

Dedi… Çarə yoxdur. Qalxanı başına tut ki, sənə daş dəyməsin. Atına da bir-iki qırmanc çək, bəlkə, ilahi yardımla bu bəladan xilas olduq.

"Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəsiniz?"[2]

---

1"Ənkəbut" surəsi, ayə 64.
2"Nisa" surəsi, ayə 97.

Bu bəla ərazisindən çıxıb, qurtulmağa iki fərsəxdən çox qalmamışdı. Mən qüvvəmi toplayıb, ata bir neçə şallaq çəkdim, üzəngiylə arxasına vurdum. At quyruğunu tərpədib, toza döndü, küləkdən iti yerindən uçdu.

Həmişə şahbaz tək başım üstə olan Hadi arxada qaldı.

"Allahınızın sizi bağışlaması üçün, göy və yer qədər geniş behiştə nail olmaq üçün bir-birinizi ötün."[1]

Başım qatışmışdı. Qəfildən məlun qara, sarı div tək özünü yetirdi. At onun qiyafəsindən hürküb, məni yerə vurdu. Bütün əzalarım əzildi. Atın qabaq ayaqları yoldan çıxıb, bataqlığa düşdü. Çox zəhmətlə ayaqlarını oradan çıxara bildi.

Hadi yetişib, mənim əzilmiş başımı, əl-ayağımı sarıdı və məni atın üstünə bağladı. Atın cilovundan tutub çəkməyə başladı. Bir qədər gedəndən sonra bu bəlalı ərazidən çıxdıq. Dedim… Hadi, sən məndən uzaqlaşan kimi bu qara yaxınlaşıb mənə bir ziyan vurur.

Dedi… O yaxınlaşan zaman mən uzaqlaşıram. Onun yaxınlaşmağı isə sənin özündəndir.

## VAY OLSUN TƏNƏ VURANLARA!

Şəhvət ərazisinin başqa bir məntəqəsinə daxil olduq. Buradakılar qarınqulular və can bəsləyənlər idilər. Sağ tərəfdə ulaq, inək, qoyun surətli canlılar vardı. Onlar öz halal malları ilə qarınqululuq etdiklərindən əzabda deyildilər. Sol tərəfdə donuz, ayı sifətində olanlar isə öz qarınqululuqlarında qorxmamış, halal-harama, özününkü-özgəsininkinə baxmamışdılar. Onların qarınları olduqca böyük, o biri əzaları isə arıq və gödək idi. Bu iki dəstə fərqli əzaba düçar olmuşdular.

"Onlar heyvan kimidirlər, bəlkə, daha çox azğındırlar. Qafil olanlar da məhz onlardırlar."[2]

Biyabanda müsafirlərin dayanacağına çatdıq. Burada heç nə tapılmırdı. Müsafirlər yol çantalarında olanlardan istifadə edirdilər. Atdan yıxılanda yerə dəyib, əzilmişdim. Hadi torbadan dərman çıxardıb, bədənimə sürtdü. Ağrılarım keçdi, gümrahlaşdım.

Hadidən bu dərman haqqında soruşdum. Dedi… Dünyada ilahi nemətlər müqabilində oxuduğun həmdin batini idi.

Çünki həmd oxumaq dünyada ölümdən başqa bütün dərdlərin dərmanıdır. Axirətdə isə həmdin batini, nemətləri həqiqi xeyirxah tərəfindən bilmək, buna yəqinliyin olmasıdır. O, bütün dərdlərin davasıdır.

"Bəndəm Mənə təşəkkür və sitayiş etdi və ona verilən nemətlərin Mənim tərəfimdən olduğunu anladı. Ey mələklər! Mən sizi şahid tuturam ki, onun

---

1"Hədid" surəsi, ayə 21.
2"Əraf" surəsi, ayə 179.

üçün dünya nemətlərinə əlavə olaraq axirət nemətləri də artırılacaqdır. Dünya bəlalarının qarşısını aldığımız kimi axirət bəlalarını da ondan dəf edəcəyik.”[1]

Sübh hərəkət etdik. Hadi dedi… Axır ki, bu gün şəhvət ərazisindən çıxırıq. Bu günkü şəhvət dil ilə bağlıdır. Bu günkü dil bəlaları heç də cinsiyyət üzvlərinin bəlalarından kiçik deyil. Bu ərazi quraqlıqdır, atla su aparmalıyıq. Özün imkan daxilində piyada gəl. Qalxanı da götür, bu gün mühüm bir gündür.

Soruşdum… Bu qalxan haradandır?

Dedi… Sənin oruc tutub, ac qalmağındandır. Sən oruc tutmaqla cinsiyyət üzvlərini şəhvətdən qorumusan. Oruc Cəhənnəm oduna qalxan və şəhvətlərin qırıcısıdır.

Yola düşdük. Cəhalət yenə peyda oldu. Dedim… Məlun, məndən uzaq ol!

Dedi… Sən məndən uzaq ol!

Ondan bir neçə addım uzaqlaşıb, Hadi ilə yanaşı yoluma davam etdim. Cəhalət yolun solu ilə gəlirdi. Yolun hər iki tərəfi müxtəlif vəhşilərlə–sarı və göy rəngli it, canavar, tülkü, meymun surətli canlılarla və bir-birləri ilə didişən, bir-birlərini gəmirən əqrəb, arı, siçovul surətli canlılarla dolu idi. Onların bəzilərinin ağzından, qulaqlarından od püskürürdü. Bəzi nöqtələrdə ilğım görünür, bu canlılar ona tərəf cumurdular. Amma məyus olub geri qayıdırdılar. Bəziləri ölü əti yeyir, bəzilərinin düşdüyü quyulardan kibrit tüstüsü, od şölələri qalxırdı. Hadidən soruşdum ki, bu quyular kimin üçündür?

Dedi… Möminləri məsxərəyə qoyanlar, ağız əyənlər, qaş-qabaq tökənlər üçündür.

“Vay olsun tənə vurub, eyb tutanlara!”[2]

Ölü əti yeyən qeybət edənlər, qulağından alov çıxanlar qeybətə qulaq asanlar, it, pişik, canavar kimi didişənlər bir-birlərinə qara yaxanlar, çöhrəsi saralanlar isə ikiüzlülər, xəbərçilər, yalançılardır.

Buranın havası şiddətli isti, yandırıcı idi. Saatda bir dəfə Hadidən su istəyirdim. O gah bir az su verir, gah da verməyib deyirdi… Qarşıda susuz yolumuz çox, ehtiyat suyumuz azdır. Qənaət et!

Dedim… Nə üçün suyu az götürdün?

Dedi… Sənin tutumun və istedadın bu qədər idi.

Dedim… Axı nə üçün mənim tutumum kiçik olsun?

Dedi… Özün kiçik saxlamısan, təqva və pəhrizkarlıq suyunu az vermisən, onu qurutmusan. Ona görə də mütləq qurtuluş hasil olmadı.

“Həqiqətən möminlər nicat tapmışlar. O kəslər ki, boş və lüzumsuz işlərdən uzaq oldular!”[3]

Sən lüzumsuz işlərdən o qədər də çəkinməmişdin və namazda xaşe, diqqətli deyildin.

---

1Hədisi-qüdsi.

2“Huməzə” surəsi, ayə 1.

3“Möminun” surəsi, ayə 1, 2, 3.

“Zərrə qədər xeyir iş görən onun xeyrini, zərrə qədər pis iş görən onun zərərini görəcəkdir.”[1]

Qarşıya nəzər sal, nə görürsən?

Baxdım, üfüqə yaxın alov şölələri ilə yanaşı qara tüstü göyə qalxırdı. Meyvə ağacları ilə dolu bağlar od tutub yanırdı. Hadiyə dedim… Bu nədir?

Dedi… Bu bağlar bir möminin təsbih (“sübhanəllah” zikri) və təhlil (la ilahə illəllah) zikrlərindən yaranmışdı. İndi o möminin dilindən yalan, böhtan, boş sözlər çıxıb, od surətinə düşüb onun savablarını, bağlarını yandırır. Əgər bu ağacların sahibinin imanı möhkəm olsaydı, həmin pis əməllərə diqqətli olar, belə bir od göndərməzdi. Özü buraya gəlib çatanda hər şeyi anlayar, təəssüflənər, amma faydası olmaz. Ona görə də Allah-Taala peyğəmbərlərin bizə xəbər verdiyi maddi dünyada gizli qalan son nəticəyə əhəmiyyət verib və kitabının başlanğıcında təqva, pəhrizkarlığı, qeybə, axirətə iman kimi təfsir edib…

“Bu heç bir şübhə olmayan və müttəqilərə doğru yol göstərən kitabdıræ o kəslərə ki, qeybə inanırlar.”[2]

Yanan bağlara gəlib çatanda artıq hər şey külə dönmüşdü. Bərk külək başlayıb, külü göyə sovurdu. Hadi bu ayəni oxudu…

“Allahı inkar edənlərin əməlləri fırtınalı gündə küləyin sovurub apardığı külə bənzəyir.”[3]

## VADİYÜS-SƏLAM

Yanıb külə dönmüş bağlardan sonra meyvələr, çiçəklər, reyhanlar, axar çaylar, nəğməkar bülbüllərlə zəngin yaşıl və xürrəm bağlar göründü. Düşündüm ki, həmin yanan bağlar da belə idi. Əgər sahibinin xəbəri olsaydı, qüssədən bağrı çatlardı.

Hadi dedi… Bura Vadiyüs-səlam–əmniyyət və salamatlıq diyarının başlanğıcıdır. Əsa və qalxanı atın yəhərindən as və onu çəmənliyə burax. Qoy hərəkət vaxtınadək otlasın.

Sonra gedib bir qəsrə çatdıq. Qəsrin darvazasından xaricdə bir parça büllurdan hovuz vardı. Suyun səfası və hovuzun lətafətindən sanki su qabsız, hovuz isə susuz idi. Hovuzun kənarında gözəl miz və oturacaqlar, yastıqlar və ipək dəsmallar vardı. Soyunub hovuza girdik. Bir qədər üzdük, zahir və batinimizi küdurətdən, bulanıqlıqdan təmizlədik. Hətta zahirimizdəki tüklər də yox oldu. Yalnız başımızın tükü, gözlərimizin kirpikləri, qaşlarımız qaldı. Bəşəri gözəlliklərə bir pərdə əlavə olundu. Daxilimizdəki çirkinliklər də pakландı.

“Onların ürəklərindəki kin-küdurəti çəkib, çıxardarıq.”[4]

---

1“Zilzal” surəsi, ayə 7, 8.

2“Bəqərə” surəsi, ayə 2.

3“İbrahim” surəsi, 18.

4“Əraf” surəsi, ayə 43.

Soruşdum… Bu bulağın adı nədir?

Hadi dedi… "Sad. Vəl-Quranil-həkim"dir.

Bədənlərimizi təmizləyəndən sonra oradakı fəxri libasları geyindik. Mənim libaslarım yaşıl ipəkdən, Hadininki isə ağ idi. Özümü güzgüdə o qədər qiymətli, cəlallı, kamallı gördüm ki, özümə aşiq oldum. Bütün bu gözəlliyə baxmayaraq, Hadiyə nəzər salanda onun gözəlliyi, dəyərinə vurulub, qibtə etdim.

Hadi qapını döydü. Xoş üzlü bir cavan qapını açıb, daxil olmaq üçün icazə vərəqini istədi. Verdim, imzasını öpüb, təbəssümlə dedi…

"Asayiş və əmniyyətlə behiştə daxil olun!"[1]

Biz daxil olduğumuz halda bu ayəni oxuduq…

"Onlar deyərlər… Həmd olsun bizi buraya gətirən, hidayət edən Allaha. Allah bizi doğru yola yönəltməsəydi, özümüz doğru yolu tapa bilməzdik. Peyğəmbərlər haqla gəlmişdilər."[2]

## BÜLLUR OTAQDA

Qabaqda Hadi, arxasınca mən başdan-başa büllurdan olan otağa girdik. Qızıl taxtlar qoyulmuş, onların üstünə qırmızı məxmərdən döşəklər salınmışdı. Döşəklərin üstündən zərif mütəkkələr düzülmüşdü. Divar və tavandan şəklimiz əks olunurdu. Öz kamal və camalımızı görməkdən zövq alırdıq. Otağın ortasında üstü növbənöv yeməklər, şərbətlərlə dolu miz qoyulmuşdu. Xidmət üçün qızlar və oğlanlar cərgəyə düzülmüşdülər. Biz taxtların üstündə əyləşdik…

"Onlar qızıl-gümüş, ləl-cəvahiratla bəzədilmiş taxtlar üstündə oturacaqlar. O taxtlara söykənib, qarşı-qarşıya əyləşəcəklər. Dövrələrində həmişəcavan xidmətçi oğlanlar dolanacaqdır. Əllərində Cənnət bulağından dolu piyalələr, qədəhlər–o şərabdan başları ağrımaz və keflənməzlər–bəyənib seçdikləri meyvələrlə, istədikləri hər cür quş əti ilə onların dövrəsində hərlənəcəklər. İri gözlü qəşəng hurilər də vardır. O hurilər sanki sədəf içində gizlənmiş incidirlər. Onlar (bu nemətlərə) etdikləri yaxşı əməllər müqabilində nail olacaqlar. Onlar Cənnətdə nə boş söz, nə də günaha bais olan bir şey eşidəcəklər. Eşitdikləri söz salam və yenə də salam olacaqdır."[3]

Yeyib-içdikdən sonra taxtlarda uzanıb, bir az istirahət etdik. Bir saat ötməmiş insanın huşunu başından alan musiqi səsi ucaldı. Birdən naz-qəmzəli Hicaz ləhnində "Həl-əta" surəsinin tilavəti başladı. Bu dilruba səsə ehtiram əlaməti olaraq, başqa səslər kəsildi. Mən özümü yatmış göstərirdim ki, Hadi bir söz deməsin, Qurana qulaq asa biləm. Tilavət sona çatdı. Mən qalxıb, oturdum. Hadi də qalxdı. Ondan şəhərin adını soruşdum. Dedi… Darüs-sürurun kəndlərindən biridir.

---

1"Hicr" surəsi, ayə 46.

2"Əraf" surəsi, ayə 43.

3"Vaqiə" surəsi, ayə 15, 26.

Dedim… Fəda olum o məmləkətə ki, onun kəndi belədir. Görən paytaxtı necə olacaq? Bəs o mübarək surəni oxuyan kim idi? Qəlbimi yerindən oynatdı. Bu surəni dünyada olanda çox sevirdim. Xüsusilə, bu ruhani dünyada könüloxşayan səslə bizə yeni həyat verən, xəyalımızı təzələyən həmin qareni (Quran oxuyanı) tanımalı, görməliyəm.

Hadi dedi… Bilmirəm, amma bu məmləkətin böyüyü müsafirlər həddi aşanda buraya gəlir. Biz də imza üçün icazə kağızını ona çatdırmalıyıq. Ola bilsin ki, o səsin sahibi də onunla gəlsin. Bəlkə orada onu gördük.

Dedim… Hadi, ola bilərmi ki, o imza etməsin? Əgər o imtina etsə, necə olacaq?

Dedi… Ağıla görə bu mümkündür. Bu halda aydındır ki, işimiz çətin olacaq. Amma çətin ki, imzalamaya. Hər halda bu sualı öz batininə ver.

"Hər kəs özünü daha yaxşı görür, tanıyır."[1]

Hadinin sözündən bədənim əsdi. Özümü araşdırdım. Gördüm ki, qorxu və ümid arasında tərəddüddəyəm. La hovlə və la qüvvətə illa billah.

Dedim… Hadi, doğrudur ki, bura Darüs-sürurdur (şadlıq sarayı), amma sən onu qəm evinə döndərdin. Qalx gedək. Mənim iztirabım anbaan artır. Ağıllı adam bir işin xətərindən qorxanda qüvvəsincə tez hərəkət etməlidir.

## ƏBÜL-FƏZLİN (Ə) HÜZURUNDA

Qalxıb yola düşdük. Bir əzəmətli qəsrin qarşısına çatdıq. Yolun iki tərəfindən xoş surətli, həmyaş cavanlar qılıncı çiyinlərinə qoyub cərgə ilə durmuşdular. Hadi onların başçısından icazə istədi ki, aralarından keçib, gedək. Sənədə imza qoyulub-qoyulmayacağı sarıdan çox narahat idik. Biz qəsrin qapısına çatanda bir neçə silahlı süvari bayıra çıxırdı. Qəsrdən heybətli "tələsin, tələsin!" sədaları ucalırdı. Süvarilər tələsik getdilər. Səsdən hamının bədəni titrəyirdi. Qəsrdən çölə çıxan şəxsdən soruşduq ki, nə olub?

Dedi… Şəhvət məntəqəsində məhbus olunmalı pis əxlaqlı bir alim səhvən "Vadiyüs-səlama" daxil olub. Əbülfəzl (ə) qəzəblənib, süvari göndərdi ki, onu geri qaytarsınlar.

Biz qorxa-qorxa, iztirabla qəsrə daxil olduq. Gördük ki, Həzrətin çöhrəsi tutulub, qəzəbdən boyun damarları qalxıb, gözləri qan dolu kasaya dönüb.

Buyurdu… Belə bir vücudla azad halda pak əraziyə girdikləri üçün onların əzabı iki qat olmalıdır. Kimsə onlara mane olmayıbmı? Onlarla qardaşımın qətlinə fərman vermiş Kufə qazısı arasında nə fərq vardır?!

Həzrətin heybətindən nəfəslər içəri çəkilmiş, adamlar ruhsuz mücəssəmə kimi dayanmışdılar. Biz də bir guşədə kizlənmiş, güvə kimi əsirdik. Nəhayət, süvarilər qayıtdılar və ərz etdilər ki, həmin alim veyl quyusuna salındı, müvəkkillər cəzalandırıldı.

---

1"Qiyamət" surəsi, ayə 14.

Yavaş-yavaş Həzrət təskinlik tapdı. Hadi ilə qabağa gəlib, təzim etdik, salam verdik. Hadi icazə vərəqini təqdim etdi. O, Əli (ə)-ın imzasını öpüb, vərəqi qəbul etdi.

Mən sevincdən baş-ayaq vuran halda özümü onun mübarək qədəmlərinə yıxdım. Yeri öpüb, gözümdən şadlıq yaşları axıtdım.

Byurudu… Necə keçindiniz?

Ərz etdim… Əlhəmdu lillah, ümidimiz bütün hallarda sizədir və sizə olacaq. Siz daha dəyərli yol və böyük vəsiləsiniz.

Yenidən qədəmlərinə yıxılıb, öpdüm və qalxdım.

Buyurdu… Bütün bərzəx (ölüm və Qiyamət arası fasilə) aləmlərində sizə şəfaət (bağışlatmaq) göstərişi verilməmişdir. İşin sonuna, Cəhənnəm səfərinə qədər öz ehtiyatınızla getməlisiniz. Bununla belə, bizim batini köməklərimiz sizinlədir. Lakin mənim comərdliyim tələb edir ki, dəfələrlə sizin kimi qardaşımın ziyarətinə susuz gedənləri, ona əza saxlayanları saxlayıb, qoruyaq.

Bu zaman gördüm ki, az yaşlı bir cavan Həzrət Əbülfəzlin yanında əyləşib və günəş tək nur saçır. Bu nurlu çöhrəyə baxmağa taqətimiz çatmırdı. Çöhrəsindən cəlal, əzəmət yağırdı. Həzrət onunla təvazö ilə danışırdı. Hiss olunurdu ki, bu cavan, Həzrətin nəzərində mühüm və dəyərlidir. Hadidən onun haqqında soruşdum. Dedi… Bilmirəm. Amma deyəsən, “Həl-əta”nı oxuyan xoş sədalı cavan odur.

Bizdən qabaqda dayanan adamdan soruşdum. Dedi… Deyəsən, Əli Əsğərdir (Hüseyn (ə)-ın kiçik şəhid oğlu). Bu sözün sübutu onun nurlu boğazındakı üzük kimi görünən qırmızı xətdir. Bu xətt onun boğazına başqa bir zinətdir!

Dedim… İntiqam üçün ricətimiz (yenidən dünyaya qayıtmağımız) çox yaxşı olardı.

Əbülfəzl (ə) gizli söhbətimizdən xəbərdar olub, buyurdu… İnşallah, tezliklə olacaq.

“Sizi sevdiyiniz başqa bir nemət də–Allah dərgahından kömək və yaxın qələbə gözləyir.”[1]

Əmin oldum ki, o cavan Əliyyibni Hüseyndir. Onun cəmal və cəlalına vuruldum. Məni o qədər cəzb etdi ki, gözlərimi ondan çəkə bilmədim. Hansı ki, böyüklərə baxmağın ədəbə zidd olduğunu bilirdim. Nə edim ki, cəlalı qovur, cəmalı çağırır. Bu iki ziddiyyət arasında bədənim elə əsirdi ki, özümü saxlaya bilmirdim. O cavan mənim halımı bilirmiş kimi mənə baxdı. Bir xələt göndərdi. Çiynimə saldılar. O əziz kəsin mərhəmət və diqqətini mənim ona olan eşq-əlaqəmin nəticəsi kimi gördüm. Torpağı öpdüm. Qəlbim iztirabdan təskinlik tapdı ki, ikitərəfli məhəbbətə nail oldum.

Hadi dedi… Gəl ya mənzilimizə gedib istirahət edək, ya da bu bağları seyr edək. İcazən imzalanıb, xələtini də almısan!

---

1“Səff” surəsi, ayə 13.

Düşündüm ki, bu biçarə əqlin fövqündə dayaynan işlərdən xəbərsizdi. Bilmir ki, mən bu məclis və onun əhlinə o qədər bağlıyam ki, ayrıla bilmirəm.

Dedim… Hadi, mənim bu məclisdə danışmağa dilim yoxdur. Öyrən gör, Həzrət bu xələti mənə nə üçün verdi. Mən özümü nəinki bu əzəmətli məhəbbətə, heç onun baxışına belə layiq bilmirəm!

Hadi mənim tərəfimdən vəkil kimi bu sualı izhar etdi.

Buyurdular… O, minbərdə "ey örtünüb, bürünmüş Peyğəmbər, qalx, (camaatı ilahi əzabdan) qorxut!" ayəsinin nazil olma səbəbini deyəndən sonra ayəni mənə tətbiq etdi. Bir halda ki, atam Kərbəla meydanında tənha qalıb "mənə yardım edən bir köməkçi varmı?" deyə ucadan çağırırdı. Mənsə xeymədə ağlayırdım. Bu oxşatmadan qəlbim şad oldu. Bəlkə, Peyğəmbərin də xoşu gəldi. Buna görə ona xələt verdim. Bu, ona layiq deyil, amma bu aləmə uyğundur. Çünki bu aləmdə gözəl olan o aləm həqiqətinin kiçildilmişi, gül şaxəsinin kölgəsidir. Ona görə də bərzəx–keçid, bağlayıcı adlanır. Həqiqi vətənə, mütləq həqiqətə çatanda həqiqi xələtini alacaqdır. Axirət aləmində səadət əhli üçün görünməmiş, eşidilməmiş, düşünülməmiş nemətlər vardır.

Onlar qəfildən qaxıb atlarına süvar oldular. Atlar qanadlanıb şəhərdən çıxdılar və uca məqamlarına yola düşdülər.

## DEMƏ QARŞIDA MÜSİBƏTLƏR VARMIŞ...

Mən Hadinin əlindən tutdum və həsrət içində mənzilə qayıtdıq. Amma nə qədər baxdıqsa, burada əvvəlki əzəməti, gözəlliyi görmədik. Bizim onlara bağlılığımız da qırıldı.

Dedim… Yaxşı, sabah yola çıxaq.

Hadi dedi… On günədək burada istirahət etməyimiz mümkündür.

Dedim… Mənim üçün on dəqiqə də çətindir. Ona yetişib, yanında olmasam, rahatlıq üzü görməyəcəyəm.

Dedi… Nə yaman tamahkarsan! Məgər bu aləmdə öz həddini aşmaq mümkündür! Bura cəhalət dünyası deyil ki, heyf deyib, nəyəsə meyl edəsən. Ədalət mizanı bir tükcə xəta etməz. Bəli, onlar fəzilətləri səbəbindən dostlara bəzən diqqət yetirirlər. Amma ölçüsüz həvəslərə yer yox! Onlar izzət zirvəsində, sənsə zillət torpağının aşağı nöqtəsində.

Qəlbimin odu, alovu səngimədisə də, susmaqdan başqa çarəm qalmadı. Çünki mənim halımın şərhi məntiqi ölçülərə sığmırdı. Hadininsə başqa bir məntiqi yoxdu. Səsimi uddum, Allah istəyən olacaq.

Hadi dedi… Gedək bir az bağlar arası gəzək, könlümüz açılsın.

Getdim, amma mənim üçün bir həzz olmadı. Hər nədən keçsən, dost sözü daha xoşdur. Dedim… O nə üçün öz tilavətində "Həl əta" surəsini seçmişdi?

Hadi dedi… Biz nə bilirik ki, bu mətləbdə nə hikmət var. Heç lazım da deyil ki, bilək. Bunu bilməyimiz lazımdır ki, etdikləri, dedikləri hikmət, savab, xeyir üçündür. Amma "onun hikməti budur, o deyil", deməyimiz işə qarışmaq, ifarata varmaqdan əlavə, həm də xətərlidir. Çünki yalan olmaq

ehtimalı var. Bəli, biz ağlımız kəsən qədər deyə bilərik ki, bu mübarək surə Əli (ə) və onun əhli-beytinin, ailəsinin fəziləti haqqındadır. Onlar da Əlini (ə) sevir və bu surə Əlinin (ə) fəzilətini bəyan etdiyindən bu surəni də dost tuturlar. Necə ki, sən dedin mən də dost tuturam. “Allah rizası üçün yeməyi yoxsula, yetimə, əsirə yedirərlər”, ayəsində onun üçün su istənildə və düşmənlər verməyəndə özünə və atasına olan müsibətə işarə olub. Hansı ki, suyun dəyəri yeməyin dəyərindən çox-çox az, həmin yetim, miskin, əsir o üç nəfərdən daha fəzilətli idi.

Bu vəziyyətdə onların işinin hikmətindən danışmasaq, daha yaxşıdır. Amanda olarıq.

Dedim… Əgər onun məqsədi axırıncı dediyidirsə, demək qanları hələ də qaynayır.

Dedi… Əlbəttə ki, qaynayır! Boğazının altındakı qırmızı xətt nəinki bir sübut, həm də böyük bir dəlildir. Onlar fərəcin (zühur) intizarını adi möminlərdən daha çox çəkirlər. Nə qədər ki, intiqam almayıblar, qanları qaynamaqdan dayanmayacaq. Necə ki, Bəni-israildən yetmiş min və ya yeddi yüz min nəfər qətlə yetirilməyincə, Həzrət Yəhyanın qanının dayanması mümkün olmadı.

Dedim… O dedi ki, bu xələt bu aləmə uyğundur və bu aləmin yaxşılıqları o aləmin kölgəsidir.

Dedi… Doğrudur, necə ki, maddi dünya da bu aləmin kölgəsidir. Yuxarıdakının aşağıda surəti vardır. Hüsn və kamalat vücud üçündür. Vücud hansı dərəcəyə enərsə, zəifləyərsə, kamalın vücudu və onun əsərləri də zəifləyər.

Hadi gördü ki, mən onun fikir-zikrindən bir şey anlamıram, bağ-bağatdakı gəzintimizin də bir faydası yoxdur. Bu səbəbdən mənzilə qayıtdıq. Hadi dedi… Bizim burada on gün möhlətimiz var ki, əməlli-başlı hazırlaşıb, qüvvə toplayaq.

Yolkəsənlər xeyli güclü, qarşıdakı fəlakətlər çox, sənin qüvvən isə azdır. Bu cümə də dünyəvi evinə getməlisən. Ola bilsin ki, “ölülərinizi xeyir işlərlə yad edin” sifarişinə görə səni xatırlasınlar və güc vasitələrin hazırlansın.

Dedi… Məgər sən demədinmi ki, Vadiyüs-səlam ərazisindəyik və hər şeydən amandayıq? İndi isə deyirsən Vadiyüs-səlamda da yolkəsən var. Bu nə sözdür? Sənin istəyin məni məəttəl etməkdir. Ey vəfalı dost, vəfasız olmusan.

Ağlamaq məni tutdu. Vadiyüs-səlam, yəni mənim bədbəxtliyimin başlanğıcı.

Dedi… Ey mənim əzizim, mənim vəfam uzaqgörənliyə xatirdir. Çünki qarşıda səni nə gözlədiyini bilmirsən. Yol çətindir. Vadiyüs-səlamın kənarı Bərəhut çölünə bitişir. Atəş və əzabla doludur. Sənin qaran bu neçə mənzildə amansızcasına səni büdrətmək niyyətindədir. Azca büdrəməklə Bərəhuta düşə bilərsən. Mən də o əraziyə daxil olmaram. Qorxuram ki, burada on gün gözləmək istəməyib xətər və əzabla dolu o ərazidə on ay məhbus olasan.

Dedim… Demək istəyirsən ki, Sirat körpüsü, Qiyamət günü görüşümüzə gəlib? Bu heç vaxt ola bilməz!

Dedi… Bəli, əvvəlcədən də dedim. Amma sən dilxorsan. Məgər demədim ki, yuxarıda olanın aşağıda surəti var? Bəli, bu neçə mənzil həmin Sirat körpüsünün aşağı dərəcəsi, kölgəsidir. Dediklərimdən savayı bir çarə yoxdur. Olacağın çarəsini olmamışdan görmək lazımdır.

## AİLƏMLƏ GÖRÜŞ VƏ KƏDƏRLİ XƏBƏRLƏR

İstər-istəməz, cümə axşamı ailəmin mənzilinə getdim. Gördüm ki.... arvadım ərə gedib və yeni ərinin işlərini görməklə məşğuldur. Övladlarım isə dağılışıblar.

Bir müddət budaqda oturdum. Məyus olub qalxdım. Küçə divarının üstündə oturub, yoldan ötənlərə baxmağa başladım. Onlar dolanışıq, ticarət işlərindən danışırdılar. Ürəyim dərdlə doldu, düşündüm ki, diri insan öz aqibəti, qarşıdakı günləri barədə fikirləşsəydi, yaxşı olardı. Bütün vaxtını əyləncələrə, arvad-uşağın istəklərinə sərf etməzdi. Əcəb qəflət və cəhalətli dünyadır! Necə ağırdır ki, kişi həmişə ona tamah gözüylə baxmış arvada, uşaqlara möhtac olsun. Necə də vəfasızlıqdır ki, əlimin yerdən-göydən üzüldüyü bir vaxtda onlar məni yada salmırlar. Peyğəmbər (s.ə.v.v) bizi nə yaxşı xəbərdar edib, buyurdu… “Axır zamanda kişinin həlakı arvadının əliylədir. Əgər arvadı olmasa, qohumlarının, övladlarının əli ilə həlak olacaqdır.” Amma nə faydası?! Oyanmadıq, ayılmadıq, öz aqibətimizi düşünmədik.

Birdən gördüm ki, qarşıdakı evin üstə yeni adaxlanmış oğlan və qız nəvələrim oturub, meyvə yeyir, söhbət edirlər.

Biri dedi… Bu ağacları atam əkib, indi torpaq əsiridir. Biz isə onun meyvələrini yeyirik.

O biri dedi… Bədbəxt, indi o behiştdə bu üzümlərdən də yaxşısını yeyir. Allah rəhmət etsin. Uşaqlıqda bizimlə nə qədər zarafat edərdi!

Əvvəlki dedi… Doğrudan da bizi çox istəyirdi, arabir pul verir, bizi sevindirirdi. Allah onu sevindirsin!

O biri dedi… Biz nə vaxt kitab, kağız, qələm istəyirdiksə, babam bizə alırdı. Ata-anamız heç etina etmirdilər.

Yenə əvvəlki dedi… Əslində bizi alim (dini alim) edən o oldu. Çünki özü alim idi və alimlikdən də xoşu gəlirdi. Bu gün cümə axşamıdır. Hərəmiz onun üçün bir Quran surəsi oxuyaq. Mən “Həl-əta” surəsini, sən isə “Duxan” surəsini oxuyaq.

Onlar surələri oxuyub qurtaranadək orada dayandım. Allah bilir ki, nə qədər şad oldum. Onların bərəkəti üçün dua edib, geri qayıtdım.

## İKİ SURƏ ƏVƏZİNƏ İKİ HƏDİYYƏ

Gördüm ki, Hadi at gətirib, üstünə xurcun bağlayıb, tərpənməyə hazırlaşır.

Dedim… Bu xurcun hardandır?

Dedi… Bir mələk gətirdi. Dedi ki, bir gözündəki hədiyyə Həzrət Zəhradan (ə.s) ona məxsus “Duxan” surəsinin tilavəti səbəbindən, o biri gözündəki hədiyyə isə Əliyyibni Əbu Talibdən (ə) ona məxsus “Həl-əta” surəsinin tilavətinə görə göndərilib.

Tapşırıblar ki, Bərəhutdan lap uzaq yolla gedək, onun səmum küləyi bizi tutub, təsir etməsin.

Dedim… Hadi, biz xurcunun ağzını açıb, onların hədiyyəsini görə bilmərik?

Dedi… Bu, yolun ehtiyaclarındandır. Nə zaman ehtiyacımız olsa, onda açılacaq. İstəyirsən hərəkətə başlayaq?

Dedim… Nə gözəl səadət!

Ata süvar oldum, yola düşdük.

Yol arası Hirs torpağına çatdıq. Çirkin it şəklində, üfunətli, bəzisi kök, bəzisi arıq, bəzisi qotur bir tayfayla rastlaşdıq. Səhra leşlə dolu idi. Üfunət göyə qalxmışdı. Hər leşin başında bir it dəstəsi yığışıb, bir-biriylə didişir, bir-birlərinə yemək macalı vermirdilər. Axırda hamısı yorulub yıxılır, leş yerdə qalırdı.

Zorlu, qüvvəli başqa bir dəstə zəifləri qovub, özləri yeməyə girişirdilər. Bir şey yeməyə macal tapmamış başqaları hücum çəkib, leşlərin üstündə bir-birlərini parçalayırdılar. Hərə özü üçün əlləşdiyindən hətta ikisi belə qoşa yola getmirdilər. Səhrada savaş itlərindən yeddi qoşun vardı.

Dünya bir leşdir, onu istəyənlər, ona məftun olanlarsa bir it! Bəziləri leşdən yeyəndən sonra ağızlarından tüstü, arxalarından od çıxırdı. Yeyənlər tənha idi. Çünki bir günə düşürdülər ki, başqa itlər onlara yaxınlaşmırdı.

Hadi dedi… Bunlar yetim malını yeyənlər və rüşvətxorlardır.

“Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar alovlu Cəhənnəmə girəcəklər.”[1]

Dedim… Hadi, bizə tapşırılmışdı ki, Bərəhut səhrasından uzaq keçək. Deyəsən, yolu səhv salmışıq.

Dedi… Yox, səhv salmamışıq, gördüyün Bərəhutun kənarıdır və onun həlakedici səmumu bizə çatmaz.

Hirs çölündən çıxıb, su kənarından keçdik və həsəd ərazisinin kənarına çatdıq.

## YA ƏLİ!

Bu səhrada əsas yoldan azca aralı xeyli maşın işləyirdi. Onların tüstüsü üfüqü qaraltmışdı. Böyük, ağır təkərləri, başqa hissələri olan bu maşınlar sürətlə hərəkətdə idilər.

Səhra lərzəyə gəlmişdi. Nəhəng təkərlərin səsi guruldayır, qulaq batırırdı. Qəribə vəlvələ, zəlzələ vardı. Onların hər yeri qara idi. Maşınlardan biri yola

---

1“Nisa” surəsi, ayə 10.

yaxınlaşdı. Cəhalət qara tüstü tək hazır oldu. Çevrilib arxaya baxanda gördüm ki, Hadi xeyli geridə qalıb. Qaranın yaxınlaşması ilə Hadinin uzaqlaşmasından qorxuya düşdüm.

Qara dedi… Bu yaxındakı maşına bax. Hələ dünyada belə bir şey görünməyib.

Ürəyimdən dayanıb baxmaq keçsə də, qaradan xeyir görmədiyimdən qulaq asmayıb, atı çapdım. "Fələq" surəsini oxuyurdum.

Qara dedi… Ay bədbəxt, "Qul əuzu"nu dünyada oxuyub, əməl etmək lazım idi. İndi ki, etməmisən, burada nə faydası var?

Dünyada div idin, indisə quzu,
Yaman duzsuz oldu burda "əuzu"

("Qul əuzu"–"sığınıram", "pənah aparıram" mənasını verir-**müt.**)

Qorxum daha da artdı. Qara qabağa düşüb, bir təpənin arxasında gözdən itdi. Mən onun əlindən asudə olmaq gümanı ilə fikirləşirdim ki, nə üçün Hadi bu qədər uzaqlaşıb? Və mənə çatmır? Qəfildən qara vəhşi bir görkəmdə koğuşdan çıxdı. At hürküb, yoldan kənarlaşdı və həmin maşının yanında yerə dəydi. Mən də yıxıldım, əzalarım əzilib hissini itirdi. Elə bil əjdaha tək məni udmaq fikrindəydilər. Yarıqlarından mənə tərəf od püskürürdü. Xəbis qara məni məsxərəyə qoyub, gülür, rəqs edirdi və deyirdi… Ey bədbəxt həsədçil! Hansı bir alim həsəddən qurtulub? Bu neçə mənzildə əlimdən çıxmaqla ciyərimi qana döndərmisən. Elə bilirdin, daha oxum qalmayıb? İndi dad! İnşallah, qurtuluş tapmayacaqsan.

Zəif də olsam, onun məsxərəsindən qanım cuşa gəldi. Uca səslə çağırdım… Ya Əli! Gördüm ki, məni dövrəyə alıb, işimi bitirmək üzrə olan maşınlar pərən-pərən olub, üz tutdular qaçmağa. Arabir bir-birlərinə dəyib parçalanırdılar. Qaçmaq istəyən qara, bir maşının altına qaldı, sümükləri xıncım-xıncım oldu. Günahkarın məkr və hiyləsi öz başında çatlar.

Dedim… Əcəb məsxərəyə qoyursan bizi!

"Əgər siz bizi məsxərəyə qoyursunuzsa, biz də sizi sizin kimi məsxərəyə qoyacağıq."[1]

Havanın istiliyi və kükürd tüstüsünün qoxusundan susuzluq mənə qalib gəldi. Bu vaxt Hadinin mənə tərəf qaçdığını gördüm. Gəlib çatdı və Əli (ə)-ın hədiyyəsi olan xurcunu açdı. Xurcundan çıxartdığı büllur qrafinin nurundan səhra işıqlandı. Qrafində soyuq və ləzzətli su vardı. Sudan mənə verdi. İçdim, susuzluğum yatdı, əzalarımın ağrısı keçdi. Rəngim açıldı, batinim səfalandı.

"Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri kafur qatılmış şərab içəcəklər."[2]

("Şərab" sözü "içmək" sözündən olub "içki" mənasındadır. Bütün spirtsiz içkilər "şərab" adlana bilər-**müt.**)

---

1"Hud" surəsi, ayə 48.
2"İnsan" surəsi, ayə 5.

Gəlib gördük ki, at ölüb. Torbanı dalıma aldım, xurcunu Hadi götürdü. Piyada yola düşdük. Bu səhra böyük Afrika səhrasına oxşayırdı. Maşınların tüstüsündən qaranlıq və üfunətli olmuşdu. Mən görürdüm ki, maşınların borularından alov adamlar tökülür. Lap siqaret töküldüyü kimi!

Hadi dedi… Dilləri və əlləri ilə möminlərə həsədlərini izhar edənlər bu maşınlarda möhkəm sıxılır. Batinlərinin alovu gözlərinin zahirini bürüyür. Həsəd od yerindədir.

“Alov odunu yandırıb puç etdiyi kimi həsəd də imanı xarab edər.”

Qaranlıq yola çökdüyündən Hadi qabaqda, mən də onun arxasınca gedirdim.

Dedim… Deyəsən yolu itirmişik. Çünki bizə olan tapşırıqlara görə zərər görməməli idik.

Dedi… Yolu səhv salmamışıq. Az adam tapılar ki, öz daxili həsədini az və ya çox büruzə verməmiş olsun. Əgər ixtiyar sahiblərimizin (12 İmam (ə)) mərhəməti və Həzrət Zəhranın (ə) razılığı olmasaydı, sizin halınız bu bədbəxtlərin halından heç də yaxşı olmazdı. Burada bəlaya düşənlərin çoxu gec-tez qurtulub, rəhmət əhli olacaqlar.

Hava isti və üfunətli, çiyin torbam ağır idi. Sürətlə gedirdik ki, bəla dolu bu torpaqdan tez çıxaq. Qaranın həlak olmayıb, tezliklə mənə çata biləcəyi fikri məni qorxudurdu. Pis qoxulu tər, paltarın altından üstünə keçirdi. Topuqlarım yorğunluqdan zoqquldayırdı. Nəhayət, min bir məşəqqətlə o torpaqdan xilas oldum.

## VADİYÜS-SƏLAMIN QƏSƏBƏSİNDƏ

Sərin meh əsdi, hava lətif oldu. Çəmənliklər, bulaqlar göründü. Dərələrdə dağ ağacları, dağların yaşıl, xürrəm zirvələri göz oxşadı. Bir saat bulaq başında oturub, yorğunluğumuzu çıxardıq.

Hadidən soruşdum… Deyəsən, qara, maşının altında qalıb, həlak oldu?

Dedi… O, məhv olmaz. Amma burada sənə əli çatmayacaq. Çünki Bərəhut ərazisindən çox uzaqlaşmışıq. Təkəbbür və xudbinliyin olmadığı üçün o səhraları və orada bəlaya düşənləri görməyəcəyik. Vadiyüs-səlamın qəsəbəsinə çatmağımıza çox qalmayıb.

Getdikcə xoşluq, xürrəmlik əsərləri və çəmənliklər, güllər, reyhanlar, meyvəli ağaclar artırdı. Yaşıl dağlar, bağ-bağat, saf və lətif bulaqlar göründü. Dağların ətəyində və zirvələrində ağ ipəkdən çoxlu xeymələr vardı.

Hadi dedi… Bura şəhərin kənarıdır. Şəhər əhalisi bu xeymələrdə sakindir.

Xeymələrin sütun və mıxları qızıldan, ipləri xam gümüşdən idi.

Xeymələri bir miqdar ötəndən sonra Hadi dedi ki, bir az gözlə, mən gedib sənin xeyməni təyin edim.

Dedim… Bu yerin adı nədir? Nə xoş suyu, ab-havası var, ruhlu, reyhanlıdır. İstərdim bir-neçə gün burada qalam.

Dedi… Bura Vadiye-əmin, müqəddəs ərazidir. Bir neçə gün burada qalmalısan.

Hadi Həzrət Zəhranın (ə.s) hədiyyəsi olan gözdən bir zərf çıxardıb, zirvədəki xeyməyə tərəf getdi. Hadi xeyməyə çatandan, məktub oxunandan sonra xeymədən oğlanlar, qızlar çıxıb, mənə tərəf qaçmağa başladılar. Hadi onlardan sonra gəlib çatdı. Xurcundan başqa bir zərf çıxardıb dedi… Sən bunlarla xeyməyə gedib, bir az istirahət et. Mən də gedim şəhərə, sənin üçün mənzil hazırlayım.

Dedim… Hadi, məni qərib, tənha qoyub gedirsən?

Dedi… Mən sənin xeyrin üçün gedirəm. Bura sənin vətənindir və o xeymədə sənin munisin olacaq.

"Çadırlara gözlərini dikmiş hurilər vardır. Belə olduqda, Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?! Onlara ərlərindən əvvəl heç bir ins-cinn toxunmamışdır."[1]

Hadi bunu deyib, pərvaz etdi. Mən xidmətçilərlə xeyməyə gəldim. Taxt üstə bir huriyə oturmuşdu. Məni görüb qalxdı, qarşıladı. Günəş tək işıqlı bir qulam xam gümüşdən kuzə və ləyənlə içəri daxil oldu. Əl-üzümü yudu. Sudan müşk, gülab iyi qalxırdı. Sonra güzgüyə baxıb, özümü cəlallı, camallı, mənə əqd olmuş huriyədən qat-qat gözəl gördüm. Bu səbəbdən mənim ondan üstünlüyüm aydınlaşdı.

"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər."[2]

Hər ikimiz taxt üstə əyləşdik. Xeymənin beş sütunu vardı. Orta sütun o birilərdən böyükdü və qızıldan, cəvahiratdan hazırlanmışdı. Huriyənin biliyini yoxlamaq üçün soruşdum… Bu xeymənin nə üçün beş sütunu var?

Dedi… Bu dağlarda olan bütün xeymələrin beş sütunu var. Çünki İslam beş sütun üstündə bərqərardır… namaz, oruc, həcc, zəkat və vilayət. Vilayət o birilərindən əfzəldir. Ortadakı sütun vilayətdir, xeymə onun üstə dayanır.

Dedim… Mən elə fikirləşirdim ki, bu sütunların hər biri Peyğəmbər ailəsindən bir nəfərin adına bağlıdır.

Dedi… Onlar Əhli-beyt üsuludurlar (kök), burada olanlar isə fürudur (budaq), o nurun kölgəsidir. Vücudun bütün aləmləri və onlarda olanlar hamısı uyğun və bir-birindən surətdirlər. Fərqləri zəiflik və şiddətdə, kök və budaqlıqda, nur və ya şüalıqdadır. İnsanın bütün bu aləmlərə yolu var və bütün mərtəbələrə yetişə bilər, bütün aləmlər silsiləsinin başı, bütün bu şərhlərin mətni olar. İnsan toplanmış vücud, Allah adlarının (ismullah) zühur yeri, Allah xəlifəsi olmaq imkanı var.

Bu geniş aləmdə oldusa hər nə,
Halının şərhinə gəl bax içimə.

İlkin fitrətə görə insanda bu güc, qüvvə vardı, lakin o özünü tanımadı və onun haqqında deyildi ki…

"Həqiqətən insan ziyan içindədir."[1]

---

1"Ərrəhman" surəsi, ayə 72-74.
2"Nisa" surəsi, ayə 34.

Başqaları da onu tanımadıqlarından dedilər…

“Çox zalım və cahil olan insan...”[2]

Dedim… Siz bu bilikləri hansı mədrəsədə öyrənmisiniz?

Dedi… Mənim təlimatım Mədineyi-şərifədə olub. Bu yaşıl və xürrəm dağlar onun yaylaqlarındandır.

Peyğəmbər (s.ə.v.v) buyurdu… “Mən elmin şəhəriyəm, Əli onun qapısıdır.” Mən Peyğəmbər qızı Fatimənin (s.ə) əlində tərbiyə almışam. O da atası tək hikmət və ismət şəhəridir. Əli onun qapısıdır. Mübarək gecə min aydan üstün Qədr gecəsidir. Quran elmlərinin nazil olduğu da o mübarək vücuddur.

“Hər bir hikmətli iş o gecə hökm olunur.”[3]

“Mübarək bir zeytun ağacından”[4] işarəsi odur.

“O gecə mələklər və Ruh Rəbbinin izni ilə hər bir işdən ötrü yerə enərlər” ayəsi Fatimə (ə.s) haqqındadır.

Hadinin mənə çatdırdığı namə Zəhradan (ə.s) idi. Yazmışdı ki, o mənim övladlarımdandır, sənin yanına gələr, onu qəbul et, o sənin sahibindir. Məlum olur ki, mən sənin zəhmətin, əkdiyinəm. Allah məni boya-başa çatdırıb, kamala yetirib.

“Bəs əkdiyin toxuma nə deyirsən? Onu bitirən sizsiniz, yoxsa Biz?”[5]

## XACƏ HAFİZİN ŞERLƏRİ BƏRZƏXDƏ

Dedi… Mən Allaha həmd edirəm ki, bütün həmdlər Ondandır və Ona tərəfdir.

Soruşdum ki, Xacə Hafizdən oxuduğun şerləri haradan öyrənmisən?

Dedi… Xacə bu məqama çatanda buranın əhalisi xahiş etdilər ki, burada bir az artıq qalsın, onun könülоxşayan qəzəllərini öyrənsinlər. Elə də oldu. O vaxtdan bəri bütün xeymələrdə əhalinin hamısı öz nəğmələrində onun qəzəllərini oxuyurlar. Xüsusilə Haqqa vüsal (qovuşma) haqqında olanlarını! Onunla adamlar arasında olan sorğuda bəzi sirlər yeri olmadan açıldı.

Maddi və mənəvi kamilliklərin izharından sonra bizi valeh edən bir sürud (nəğmə) başladı…

Eşq evi yolçusuyuq, tərpənərək yoxluqdan
Vücud iqliminədək yollarını tapdamışıq.
***
Xəttinin rəngi yaşıl, zinəti Cənnət bağının,
Bu yaşıllıqlara xatir əzabın adlamışıq.

---

1“Əsr” surəsi, ayə 2.
2“Əhzab” surəsi, ayə 72.
3“Duxan” surəsi, ayə 4.
4“Nur” surəsi, 35.
5“Vaqiə” surəsi, ayə 63-64.

***

Bu dəfinə səbəbindən qoruyan Ruhul-əmin,
Lap gədalıqla bu sultan evinə toxdamışıq.

Bundan sonra növbənöv yeməlilər, içməlilər gətirildi. Yedik, içdik, mütəkkələrə söykəndik. Ona dedim… Məlum olur ki, sən burada sakin deyilsən.

Dedi… Bəli, sənin görüşünə gəlmişəm ki, burada bir müddət istirahət edəsiniz. Bu xeyməni və onun əşyalarını da mən gətirmişəm. Bəlkə də, dağın başında, ətəyində gördüyün xeymələrin hamısı təzə gələnləri qarşılamaq üçün tapşırıq alanlar tərəfindəndir. Bu məhəl bağları ilə, ruh-reyhanı ilə, xoş-xürrəmliyi ilə onların vəqfi, Allahın mehmanxanasıdır. Siz buradan gedəndən sonra mən də qaldığım yerə qayıdacağam.

Dedim… Mən bu bağlarda, xeymələr arasında, eniş-yoxuşda, göllər ətrafında gəzmək, vəziyyəti bilmək istəyirəm. Bəlkə, burada tanışlarımdan, dostlarımdan kimsəni gördüm.

Dedi… Burada azadsan, nə istəsən hazırdır. Amma xeymələrə daxil olanda icazə və salam lazımdır.

Mən buraya gələndə sizin böyük qızınızın xeyməsini gördüm. Sizinlə yaxınlıq səbəbindən xeyməsinə daxil oldum. Onu özümə dost tutdum. Əgər istəyirsinizsə, oraya gedin, mən də sizinlə gələcəyəm.

Dedim ki, əlbəttə, gedək. Qalxıb, birlikdə oraya getdik. Xeyməyə yaxınlaşanda salam verdim. Qızım səsimi tanıyıb, özü bayıra qaçdı. Bir-birimizi ziyarət edib, Allaha sonsuz nemətləri və rəhmətlərinə görə həmd etdik və xeyməyə daxil olduq. Zinətli taxtlar üstündə əyləşdik. O öz rəfiqələri ilə bir cərgədə, mən də öz yoldaşımla bir cərgədə.

“Taxtlara söykənib, bir-birləri ilə qarşı-qarşıya əyləşəcəklər.”[1]

## QIZIMLA SÖHBƏT

Soruşdum… Səfərin necə keçdi?

Dedi… Birinci mənzildə və həsəd ərazisində bir qədər təzyiq, çətinlik gördüm. Bu çətinliklər başqaları üçün ağır keçirdi. Bəzi yerlərdə anladım ki, mənim nicatım sizin tərəfinizdəndir. Buna görə də sizə xeyir-dua etdim. Hətta bacım bu aləmə gələndə və sizin səfəriniz yaxınlaşanda Allahdan sizin üçün şəfa istədim ki, anam, o biri bacılarım başsız qalmasınlar.

Soruşdum… Bu aləmə gəlmiş o biri bacından nə xəbər var?

Dedi… Burada bacımı gördüm. Cəlalı, əzəməti məndən yüksəkdir. Ondan halını, yolda başına gələnlərdən soruşdum. Həmin çətinlikləri, piyada gedişləri görməmişdi. Yalnız kobudluq ərazisində olmuş, onu da xoş keçirmişdi. Qalan yolu “teyyül-ərz” ilə, birbaşa gəlmişdi.

---

1“Vaqiə” surəsi, ayə 16.

Dedim… Bunun səbəbi onun on yeddi yaşında, bizim kimi yükünü ağırlaşdırmadan, işini çətinləşdirmədən bu dünyaya köçməsi olub.

Dərin fikrə getdim. Mənim vücudumda, işlərimdə hansı nöqsan var idi ki, belə oldum. Gələcək əziyyətlərdən hazırda azadam. Dünyada qalanlarımla əlaqəm kəsilib. "Sur çalındığı vaxt artıq aralarında nə qohumluq olar, nə də bir-birlərindən hal-əhval tutarlar." Övladlarım bu aləmə müsafir olublar. Rifah və rahatlıqdadırlar. Bəs mən nə üçün...

Kamil axtarışdan, qəlbimin künc-bucağını araşdırdıqdan sonra bu otun toxumunu tapdım. Bildim ki, haradan bitib və haraya qol atıb.

## DƏVƏ OTARAN NƏ BİLİR DƏRD NƏDİR

Səfiyyə (huriyə) fikrə getmişdi ki, könlümün qəmini necə dağıtsın. Təəccübünü bildirdi ki, Darüs-sürur qəm, kədər yeri deyil!

Dedim… Özünə əziyyət vermə, kədəri dağıtmaq sənin işin deyil.

Aşiq könlü min bir dərdə səhnədir
Dəvə otaran bilərmi dərd nədir?!
***
Kədər yeri deyil Qüds barigahı,
Fəqət ərşə qalxır qüdsülər ahı.

Qəlbimin sirrini ona demədim. Çünki o anlamazdı. Heç faydası da yoxdu! Çünki yuxarı aləm əhli hər şeyi tərk etsə də, toxumu torpaqda gizlənmiş eşqi dərk etməz. Yalnız torpaqdan yaranmış Adəm eşqə talib və aşiqdir və kədər içində zarıyıb deyir…

İlahi, bir sinə buyur, yandıra
Bu sinədə könül ver, od qaldıra.
***
Donmuş könül bir torpaqdır, bir də su
Qəlb od olsun, sinəm tüstüylə dolu...

Səfiyyəyə dedim ki, mən o kənardakı bağlarda gəzib, xəlvətə çəkilmək, könlümün qəmini dağıtmaq istəyirəm.

Dedi… Haraya getsən, tənha deyilsən. Dağ-dərə, səhra, bağ, yamac zərrə-zərrə şairdir, həssasdır.

Dedim… Onlar mənim üfüqümdə deyillər.

Dedi… Əgər bir naməhrəmiksə, yaxşı olar ki, bizi mürəxxəs edəsən.

Dedim… Əgər Həzrət Zəhra (ə.s) olmasaydı, indi mürəxxəs idin.

Qalxıb, yola düşdüm. Hansı ağacın altına çatdımsa, budaqlarını əydi və səsləndi ki, "ey mömin, bizim meyvələrimizdən ye!" Onların səsi xoş olsa da, mənim qulağımda qarğa qarıltısından başqa bir şey deyildi. Onların cavabında dedim…

Könlüm elə tutulmuş, qalmamış həvəs bağa,
Qoxulanmağa gəlmiş çiçək həsrət damağa.

Ağac budağını yuxarı qaldırıb səsləndi… Meylin yoxdusa, niyə gəlmisən?

Başqa bir ağac səsləndi… Sözsüz ki, mələkdir, yoxsa yeyərdi.

Başqa biri əlavə etdi… Yəqin meyvə yeməyən bir heyvandır.

Başqa biri təəccübləndi… Bəlkə dəlidir. Axı bura dəli yeri deyil?! Bəlkə naz edir?

O biri dilləndi… Qıtlıqdan təzəcə çıxıb, bolluğa düşüb. Zövqdən, həyəcandan ağzı kilidlənib...

Dedim… Yenə o xeyməyə rəhmət!

Geri qayıtdım. Hadi xeymədə dayanıb məni gözləyirdi. Məni görüb yaxınlaşdı. Fikirləşdim ki, bəlkə, qəlbimin düyününü bu məhrəm aça.

## YOX, HƏLƏ RAHAT DEYİLƏM

Bir-birimizə yetişdik, salamdan sonra soruşdu… Harada gəzirdin? Hazırlaş, şəhərə gedək. Alimlər, möminlər səni gözləyirlər.

Dedim… Şəhərə nə üçün gedirik?

Dedi… Ey vay, bəs buraya nə üçün gəlmisən?

Dedim… Bilmirəm məni buraya nə üçün gətiriblər.

Dedi… Nemətlərə küfr etmə. Səni o zülmətdən bu işıqlı dünyaya gətiriblər ki, Haqqın nemətlərindən bəhrələnib, həmişə şad olasan.

Dedim… Hansı nemət? Hanı o nemətin dadı? Hanı mənim məşuqlarımın qəlbinin sevinci? Məgər əvvəl gecədə sən Əbülfəzlin, Əli Əkbərin silahlı olduğunu görmədin? Yoxsa mənasını anlamadın? Məgər Əli Əsğərin boğazındakı qırmızı xətti görmədin, ya mənasını dərk etmədin? Əgər bir kəsin onlara müxtəsər məhəbbəti olarsa, qüssədən ölər. Onda qalmış yemək, içmək, şadlıq, huriyə, qəsrlər! Sən düşündüyün qədər də qarınqulu, özünü istəyən deyiləm.

Dedi… Bəs burada qəsrlərdə hurilərlə şadlanan alimlər, möminlər, Əhli-beyt dostu deyillər, yoxsa onlarda intiqam hissi yoxdu? Başqa mətləb budur ki, zalımlar hazırda ilahi cəzadadırlar.

Dedim… Hər kəs öz halını daha yaxşı bilir. Mən nə qədər ki, intiqam almamışam Darüs-sürur Beytül-həzən (qəmlər evi), nemətlər isə dərddir. Başqalarının şadlığını onların özlərindən soruşun. Onların ilahi intiqama giriftar olmaları bizim intiqamımızdan, şəksiz ki, daha ağırdır. Amma təsdiq edirsiniz ki, məzlumlar özləri qisas, intiqam almasalar, qəlbləri soyumaz.

Ona görə də vərəsələr üçün qisas haqqı verilib. Bununla belə, başqaları da zalımlara daha şiddətli əzab verə bilər. Qısası, Allah buyurmuşdur…

“Sevdiyiniz başqa bir nemət də–Allah dərgahından kömək və yaxın qələbə gözləyir.”[1]

---

1“Səf” surəsi, ayə 13.

İntiqam bizim məhbubumuzdur. Bu məhbuba çatanadək Darüs-sürurumuz yoxdur. Olsa da mən gəlmirəm.

Sevgilisiz şadlıq zindandır, zindan,
Şadlıqdır yarını tapanda insan.
***
Səninlə sevdada olmağım, inan,
Hər iki aləmdən gözəldir hər an.

Sözün canı budur ki, behişt həqiqəti, Darüs-sürur, bunların misli ruhun genişlənməsi, qəlbin muradına çatmaqdır. Qalanları isə artıqdır.

Hadi bir müddət başını aşağı salıb, sakit dayandı. Sonra soruşdu… Burada qalırsan?

Dedim… Yox!

Dedi… Bəs hara gedirsən?

Dedim… Bilmirəm, özümə yer tapa bilmirəm. Onu bilirəm ki, harada olsam, əzabdayam. Biyabana gedərəm, səfil olaram.

Eşqinin qəmindən çöllərə düşdüm,
Qanadsız quş oldum, əllərə düşdüm.
***
Dedin… səbirli ol, səbirlə keçin
Başıma toz tökdü bu səbir neçin?

Hadi bir çarə görməyib, şəhərə qayıtdı. Səfiyyəyə də dedim ki, meylin olsa qayıt vətəninə, mənim sənlik bir işim yoxdur, Həzrət Zəhraya (ə.s) çatanda mənim salamımı yetir və halımı ona bəyan et.

Səfiyyə də xeyməsini, çadırını götürüb getdi. Bir sakit guşə tapıb, zarıyıb ağlamağa, raz-niyaza başladım…

Axtardım, göz yaşlarında dayandım,
Düşdüm möhnət qucağına, Xudaya.
Dilbərin şövqündən, həm fərağından,
Düşdüm gönül ocağına, Xudaya.
***
Dərd özümdə, dərmanı dost əlində,
Vəsl özümdə, hicranı dost əlində.
Qəssab kimi soysa əgər dərimi,
Ayırmaram bu canı dost əlindən.
***
Özümə yaxınsan könlümdən uzaq,
Könlümdə sevdadan başqa dağım yox,
İki aləm gözəlinə and ola,
Məhəbbətdən savay umacağım yox.
***
Bizi nə sər, nə saman yaratdılar,

Pərişanam, pərişan yaratdılar.
Pərişanlar basdırıldı torpağa,
O torpaqdan bizə can yaratdılar.
***
Keçinərdik dərd bir olsa nə vardı,
Üzümüzə qəm az gülsə nə vardı!
Başım üstə həbib gələ, ya təbib,
İkisindən biri gəlsə nə vardı!

## HƏBİB İBNİ MƏZAHİRLƏ SÖHBƏT

Bu halda ikən biri qaçaraq gəldi ki, Həbib ibni Məzahir səni istəyir. Soruşdum ki, haradadır? Dedi ki, şəhərdə.

Düşündüm ki, yəqin mən şəhərə gedəndə Hadi onunla əlaqə saxlayıb. Həbib ibni Məzahirə mütəvəssil oldum (o aləmdə xüsusi zehni əlaqə ilə). Salamlaşıb, hal-əhval tutandan sonra mənim raz-niyazımı eşitdiyini bildirdi və buyurdu…

Nədən halın pərişandır, oğulcan,
Qəmdə vurnuxur xəyalın, oğulcan?
Sevin, yüz-yüz şükürlər qıl Tanrıya,
Nəhayət, əldə vüsalın, oğulcan.

Cavabında dedim…

Ata, gülşən zindan olmuş gözümdə,
Gülüstanlar tufan olmuş gözümdə.
Hələ kam almamış könül həyatda,
Hər nə ki var, duman olub gözümdə.

O dedi…

Toplansa qəm əhli, inan, bir yerə
Danışıb qəmləri faş edək gərək.
Qəmləri çəkməyə tərəzi gəlsə,
Qəmimiz hamıdan ağır gələcək.

Cavabında dedim…

Könlümün dərdləri hesaba gəlməz,
Bişmiş quşun dərdin bir Allah bilib.
Həbibim, sən fəda olub həmin gün
Qəmdən qurtulmusan, qəm bizə gəlib.

İlahinin danışan kitabı Həzrət Vəliyyi-əsr (12-ci İmam (ə)) buyurur… “İmam Hüseyn (ə) kömək istəyən zaman dünyada olmadığımdan ona kömək edib, aşiqlərin son arzularına uyğun hüzurunda fəda ola bilmədiyimdən həmişə yanıb-yaxılıram.”

Deyirlər, İmam Əsr (ə) ziyarət zamanı cəddi Hüseynə (ə) ərz edir… “Gecə-gündüz sənin üçün ağlayıram, gözlərimdən yaş yerinə qan axır.”

Eşq məktəbində sübut olmuşdur ki, məşuqunun hüzurunda fəda olan aşiq öz arzusunun son dərəcəsinə çatır. Əfsus, həsrət, qəm-qüssə istəmirlər. Ey Həbib, sən də onlardansan!

Başqa bir dəstənin isə eşqi, süruru, sevinci İmam Zaman (ə)-dır. Onlar Həzrətə yetişə bilmirlər ki, ona xidmət, yardım edələr, öz məşuqlarını zalımın çəngindən alalar, Həsrət alovu qəlblərində şölələnir. Onlar üçün nəinki şərbət dadsızdır, üstəlik onlar yemək yerinə qəzəbdən ciyərlərini yeyirlər. Biz o qəbildənik.

Ey Həbib! Biz necə sizinlə bərabər, eyni ola bilərik? Haradan sizin sevinc və şadlığınız bizimki ilə bir olar?

Siz Kərbəlada eşqin şiddətindən meydana üryan girdiniz. Siz öz ölümünüzə can atdınız. Bu iş səbəbindən eyşiniz dada gəldi, içdiklərinə ləzzət qatıldı. Biz isə bundan binəsib olduq, bu həsrəti özümüzlə gora apardıq.

Ey Həbib! “Allah yolunda öldürülənləri heç də ölü zənn etmə, onlar öz Rəblərinin yanıda diri olub, ruzi yeyirlər” ayəsi sənə aiddir, mənə yox!

Ey Həbib! Sən yeni həyat almısan, mən isə ölüyəm. Sən xoşbəxt olmusan, biz isə bədbəxt olmuşuq. Məgər sən 12-ci İmamın dünya xarabalıqlarında qəm-qüssə içində nə çəkdiyindən xəbərdar deyilsən? Əgər sən də bizim kimi arzunu gora aparsaydın, indi qan ağlayardın.

Qəlb hakimsə qətlə yetən kəslərə,
Ağlayar ölü yox, diri səslərə.

Əlaqəmiz elə idi ki, bir-birimizin surətini görürdük. Həbibin halı pozuldu, başını aşağı saldı, gözləri yaşla dolmuş halda zümzümə etdi…

Alovlanmış quşam öz əhvalımla,
Aləmi odlaram qanadlarımla.
Rəssam bir divara çəksə əksimi,
Dünyalar od tutar bu timsalımla.

Söhbəti kəsib getdi, mən də qayıtdım.

## RƏNGİNİ İTİRMİŞ ÖLÜ AŞİQ

Əvvəllər məni divanə hesab edənlər indi təəccüblə baxırdılar. Mənim Həbiblə söhbətimdən sonra ayıldılar, məni dövrəyə alıb dedilər… Deməli, sən divanə deyilsən, bəs niyə beləsən?

Dedim… Siz, sözsüz ki, Peyğəmbər Əhli-beytini sevənlərsiniz. Yoxsa burada yeriniz olmazdı. Əlbəttə ki, Peyğəmbərin, Əhli-beytin, möminlərin gözünün nuru olan İmam Əsri (ə) dünyada tanımısınız.

Dedilər… Biz onun aşiqləri, xidmətçiləriyik.

Dedim… Eşitmisinizmi ki, o, biyabanlarda sübh, şam ağlar-sızlar dolanır! Nə bir il, nə on il, min ildən çoxdur.

Dedilər… Bəli, bilirik. Amma əlimizdən bir iş gəlmir.

Dedim… Əlinizdən gəlmir ki, bu eyş-işrəti, şadlığı tərk edəsiniz? Ölsün o aşiq ki, məşuqunun rəngində deyil. O, intizarın uzun çətinliyi, təzyiqində, siz isə eyş-işrət, rahatlıq, sevinc balışlarına dirsəklənmiş! Bu halınızla aşiqlik iddiasındasınız? Bu məhəbbət əsəri deyil. Ən yaxşı söz əməlin təsdiq etdiyi sözdür.

Min nəfərdən artıq olan bu cəmiyyət sarsılıb, dağıldı. Gördüm ki, hamısı xeymələri söküb, dağıdırlar. Köhnə libas geyinib, baş-ayaq yalın gəldilər. Dedim… Qeyrətinizlə fəxr etdim. İndi Beytül-məmura tərəf dayanıb, uca səslə oxuyun…

"Əli hər yerdən üzülən kəs dua edəndə onu eşidib, şəri sovuşduran varmı?[1]

Elə olsun ki, bədənlər qızsın. Bu çətinlikdə murad İmam Zaman əleyhissalamdır.

Həbib ibni Məzahir və Hadi tərəfindən bu qəziyyə Vadiyüs-səlamda yayıldı və bir inqilab yarandı. Mən əhali arasında qəriblik, köməksizlik, iztirab və İmamın intizarının uzunluğu, onlarda intiqam hissinin yaranması haqqında atəşin nitqlər söyləyirdim. Vadiyüs-səlamın özündə natiqlər, xətiblər heyəti yarandı və onlar kürsüyə çıxıb nitqlər söyləyirdilər.

Yavaş-yavaş buradan getmiş Səfiyyələr vasitəsi ilə əhalinin həyəcanı, daxili inqilabı yuxarı məqamlarda bilinirdi. Xəbərdar olduq ki, Əliyyibni Əbu Talib (ə), Həzrət Zəhra (ə.s) on məsum övladları ilə birgə belə bir istəyin olmasına şəfaət istəyiblər. Amma Peyğəmbər (s.ə.v.v) üzrlü olmuşdu ki, hələ mömin kafirdən seçilməyib.

"Əgər möminlər kafirlərdən ayrılıb, seçilsəydilər, hökmən kafirləri dərdli əzaba düçar edərdik."[2]

Bu ayə səbəbindən intizar bu qədər uzanıb. Bu halda dua edirik… "Allahummə fərric fərəcən acila..." O qədər ya Mühəmməd, ya Əli dedik ki, bu iki əzəmətli şəxsi də sarsıtdıq. Həzrət Zəhra (ə.s) da əlini dua üçün qaldırdı. Yanımızda bu aləmdə olan bütün söhbətlərin həkk olunduğu lövhə vardı. Biz hər söhbətdən xəbərdar olurduq.

## İLK DUALAR QƏBUL OLUNUR

---

1"Nəml" surəsi, ayə 62.
2"Fəth" surəsi, ayə 25.

Həzrət Haqqdan xitab yetişdi ki, “Ya Mühəmməd, duanı müstəcab etdim və tezliklə zühurun təcilində vəfa edərəm.”

Peyğəmbər (s.ə.v.v) dedi… “Sənin razılığınla razı olmuşuq. Lakin Sənin bəndələrindən biri Sənin mehmanxanana daxil olub, süfrə başında əyləşib. Amma istəyi yerinə yetməyənədək əlini süfrəyə uzatmır. İstəyi İmam Əsrin (ə) zühurudur. Belə deyirlər ki, bizim məhbubumuza İmam Zamana intizarın uzunluğu səbəbindən eyş-işrət mənasız olub. Bəs biz necə şadlanaq? O göz yaşları, nalə içindəsə, bəs biz necə şadlanaq? O göz yaşları, nalə içindəsə, bəs biz necə sevinib, gülək? Ölsün o aşiq ki, məşuqu rəngində olmayacaq! Dünyada adət ediblər ki, birindən istəkləri olanda onun süfrəsinə əl uzatmasınlar. Süfrə sahibi də nə qədər çətin olsa da, onların istəklərinə əməl edib ki, süfrəsindən dadsınlar. Onlar inanırlar ki, Sən böyüklərin böyüyüsən, hər şeyə qadirsən, Sən ehtiyaclıların, dara düşənlərin sığınacağısan, əmrinə heç bir maneə yoxdur.”

Biz susuz dəvə tək lövhənin ətrafında toplanıb, lövhədə Peyğəmbərin həkk olmuş kəlmələrindən hiss edirdik ki, qəlbi bizə tərəf meyllidir. Bəzi mətləbləri tutub, tamamilə ümidvar olduq ki, tezliklə məqsədimizə çatacağıq. Bir gözümüz lövhədə sevincdən işıqlanmış surətlərlə Haqqın cavabını gözləyirdik ki, Peyğəmbərinə nə buyuracaq. Əmin idik ki, məqsədimizə çatacağıq.

Haqq-Taala Öz Peyğəmbərinin meylini müşahidə edib, Peyğəmbərin Haqqın qüdrət və kərəmini cuşa gətirən sözlərindən sonra, onun istəyini rəva buyurmaqdan savayı bir cavab vermədi. Haqq-Taala o qədər səbir və sükut etdi ki, sanki cavab verməkdə tərəddüd edirdi. Xudavənd mömin bəndənin ruhunun qəbzində Özü tərəddüddədir. Əgər Peyğəmbərə mənfi cavab verərsə, axı Öz həbibinin üzüntüsünü istəmir. Necə müsbət cavab versin ki, bəlkə də, bu sürətlə təqdirlər silsiləsi zəruri deyil.

Qəfildən Haqqın cavabı bu cümlələrə təcəlla etdi… “Bizim düşmənlərdən intiqam almaq vədəmiz Bərəhutdadır. Təsəvvür olunan şey Bizim vəlimiz Höccət ibnil-Həsənə aydındır və o, dünyəvi intiqamın təxirindən nigaran deyil. Təxirə səbəb məsələlərdə onun razılığı Bizim razılığımızdan asılıdır. O, Allahın istədiyindən başqa bir şey istəməz. Amma bu az istedadlı, hövsələsiz dəstə məclis qurub, qərar çıxarıblar, buna da müəyyən qədər haqları var. Mənim sonsuz rəhmət və qeyrətimi cuşa gətiriblər. Ona görə də Mənə lazımdır ki, onların qəlbinin dərdini boşaldam. Çünki onlar Mənim qonağımdırlar. Ona görə də məlaikələrdən bir dəstə göndərdim ki, onları Bərəhut çölünə aparsınlar. Düşmənlərin halını görsünlər və onların əzabından qəlbləri soyusun.

Bu buyuruqlar tamam olandan sonra adamların arasında səliqə, baxış fərqlərinə görə qarışıqlıq düşdü. Biri dedi… Bərəhut çölünə getməyək, onsuz da onların əzabda olduqlarını bilirik. Amma əlimizlə qisas almaq Allahın bizə verdiyi haqdır.

O biri dedi… Bərəhuta getməliyik. Gedib, gəzək, qəlbimiz bir az təsəlli tapsın. Həm də tam razılıq olmayıbsa, bundan artıq israr etmək doğru deyil.

Çünki dünyada kimlərinsə kəcliyindən bu iş bu vaxtadək təxirə düşüb. Bizim də hərəkətimiz onu incidər, qəzəbləndirər.

Bir başqası dedi... Xeyr, Bərəhutu görəndən sonra bu işi davam etdirmək lazımdır, hər nə olursa olsun, bundan artıq səbrimiz yoxdur.

O qədər səs-küy salmışdılar ki, deyilən sözləri başa düşmək olmurdu. Sakitliyə çağırsaq da, faydası olmurdu.

Nəhayət, gözqamaşdıran təmtəraqlı məlaikə dəstəsi gəldi.

## MƏLAİKƏLƏRLƏ SÖHBƏT

Bizi köhnə libaslarda, baş-ayaq yalın, toz-torpağa bulaşmış, zəlil (xüsusilə bütün bu od-alov gorundan çıxmış Məni) görüb, bizə qarşı yuxarıdan baxmaları zirvəyə çatdı və əvvəl xilqətimizdəki kimi həqarətlə baxdılar.

Məlaikələrin gəlişi ilə adamlardakı inqilab alovu səngidi. Mən ixtilafın götürülməsi, məlaikələrə fəzilətimizin sübutu üçün onlara etina etmədən minbərə qalxıb, xütbəyə başladım. Onlar təəccüb etdilər ki, mən onların yanında nə danışa bilərəm. Məclisə etina etməyib, əyləşdilər və mən başladım.

Xütbənin bir yerində söhbət məlaikələrdən getdiyindən onlar dizi üstə dayandılar.

Ey İmam dostları, ümmət yol göstərənləri, bizim Peyğəmbərin Əhli-beyti zəif olmadıqları halda zülm gördülər və cahil tərbiyə edən dünyada zalım cahillər onların qapılarını bağladılar. Peyğəmbər qızının qapısına od vuruldu. Onu qapıyla divar arasında qoyub, sümüklərini əzdilər. Onun “kimdir mənə yardımçı” çağırşına cavab verən olmadı. Eləcə də, Hüseyn ibni Əlinin çağırışı cavabsız qaldı. İndi ki, sədası bizə çatıb, biz “ləbbeyk” deyənlər əlimizdən gələni əsirgəməməliyik.

Həzrət Haqdan olan bu istəyimizdə dünya və axirət nəzərimizdə deyil. Dünyada o qədər intizar çəkdik ki, gözlərimiz kor oldu, zühur günü həsrətini özümüzlə gora apardıq.

İndi də başqa bir məqsədimiz yoxdur. Darbaxışlılar dedilər ki, məqsədimizdə çox israr etməyək. Məbada, iş çətinliyə düşə. Elə düşündülər ki, bu xahiş kərim Rəbbimizdən yox, əskik məxluqlar dərgahındandır. Onlar bilsin ki, pakların əməllərini napakların əməlləri ilə ölçmək, tutuşdurmaq, müqayisə etmək olmaz. Allah hamıdan mehribandır. Nalə çəkənlərin ahu-zarı Onu yormaz.

Eləcə də o adamlar ki, dedilər zalımların əzabının tamaşasına getməyək, bu əməldən tam təsəlli yoxdur, doğru deyil. Çünki bu əməl Allaha itaətsizlik olar. Getmək lazımdır, özü də tam qüvvə, döyüş hazırlığı ilə. Əgər döyüşə icazə verilərsə, döyüşək. Məqsədim orada qalmaq, istəyimizdən əl çəkməmək, muradımıza çatmaqdır. Min illər çəksə də! Sizlərdən hər kəsdə belə dəmir iradə, ali himmət, sabit əzm varsa, bizə qoşulsun.

On iki min kişi irəli çıxdı ki, biz hazırıq və iş məqsədə çatmayınca geri dönmərik.

Mən də minbərdən düşdüm. Min nəfər silahlanmış və ata süvar olmuşdu. Bayrağı başçının əlinə verib, tapşırdım ki, hər enişdə, hər yoxuşda "ləbbeyk" və "sədeyk" desinlər. Fikirləşin ki, o iki qərib İmamı eşidirsiniz, qoy, qanınız cuşa gəlsin.

Məlaikələrin başçısına dedim ki, məlaikələrdən yüz nəfərini bu dəstəyə qoşsun. Onun razılaşmaqdan başqa çarəsi yoxdu. Narahatlığından bilinirdi ki, bizim işimizə etirazı var. İşimizi Allah razılığına zidd, bəlkə də divanəlik sayırdı.

Beləcə, altı dəstə bir-birlərinin ardınca yüz məlaikənin müşayiəti ilə yola düşdü. Altı minlik yeddinci dəstə qalan məlaikələrlə gəlirdi. Özüm də ələm götürdüm, qılıncları siyirib hərəkətə başladıq. Hər eniş və yoxuşda "ləbbeyk" səsindən yer-göy titrəyirdi.

Mən məlaikələrin başçısı ilə çiyin-çiyinə yanaşı gedirdim. Arabir görürdüm ki, başçı sakit və qaraqabaq, başı aşağı, fikirlidir. Elə bil, nəsə demək istəyir, sonra sözünü udurdu. Mən onun sirrini hiss edirdim. Amma yenə də soruşdum… Nə üçün qəmgin, narahatsınız?

Dedi… Mən sizin bu vəhşicəsinə hərəkətinizdən qəzəbliyəm. Çünki bu vaxtadək bu əmin-amanlıq aləmində belə bir hadisə baş verməyib. Qorxuram Allahın qəzəb odu sizə nazil ola, biz də sizin aranızda sizin odunuza yanaq.

Dedim… Siz nə üçün bizim odumuza yanmalısınız?

Dedi… Çünki, sizi bu pis işdən saxlamadıq.

Dedim… Əgər bizim işimiz pisdirsə, nə üçün qarşısını almırsınız?

Dedi… Çünki sizi Bərəhuta aparmaq tapşırığı almışıq.

Dedim… Biz də sizinlə gedirik, bəs nəyimiz pis olur?

Dedi… Qoşun çəkməyiniz, fitnə yaratmağınız.

Dedim… Məgər Allahdan əmr olub ki, bizi başqa surətdə aparasınız?

Dedi… Yox, yalnız buyrub ki, onları aparın.

Dedim… Aparmaq bütün növ aparmağa şamildir. Piyada, süvari, silahlı, əliboş... hansı keyfiyyətdə olursa olsun. Bütün bunlar sizin vəzifənizdir. Ona görə də pis olmayacaq. Çünki Allah pis işi əmr etməz. Əgər siz bizə Allahın əmr etdiyini qadağan etsəydiniz, Onun qəzəbinə düçar olardınız. Ona görə də yaxşıya dəvət, pisdən çəkindirmək o kəsə vacibdir ki, yaxşı və pisi tanımış olsun, onları fərqləndirə bilsin. Sən ki, yaxşını pisdən ayıra bilmirsən, bizə bir işi qadağan, bir işə əmr necə edə bilərsən?

Gördüm ki, əvvəlki böyüklüyündən, uca mərtəbəsindən bir qədər aşağı endi. Təvazö ilə dedi… Əlhəmdu lillah ki, dilimə qadağan gəlməyib.

Dedim… Mənim qeyrətim məni məcbur edir ki, sizi bundan da aşağı endirim. Sənin "bu hadisə indiyədək olmayıb", deməyin eynən qiyas, oxşatmadır. Belə çıxır ki, gələcək həmişə keçmiş kimi olmalıdır. Əgər bir şey keçmişdə olmayıbsa, gələcəkdə də olmamalıdır? Hansı ki, ilk qiyas edən şeytan olub. O deyib ki, hər nə oddandırsa, od kimi nurludur. Sən özün bilirsən ki, onun qiyası batil idi. Məhz, bu zalımlığına görə ilahi dərgahdan

qovuldu. Sənin bu batil qiyasın müqabilində Haqq-Taala açıq-aydın buyurub… "O hər gün bir məqamdadır."

Mələk daha artıq təvazö və kiçikliklə dedi… Qorxum budur ki, Peyğəmbər aydınca Əlinin cavabında buyurub ki, hələ xəbis təmizdən ayrılmayıb və təqdir, zühur yaxşıların pislərdən üstünlüyündən, ayrılığından sonradır. Necə ki, Nuhun qəziyyəsində oldu. Siz çalışırsınız ki, təxirə salınmış təqdiri tezləşdirəsiniz. Başqa sözlə, o şey ki, müqəddər olub, sabah zühur olsun, siz istəyirsiniz ki, bu gün olsun. Bu özü həqiqətdə Allahlıq iddiasıdır.

Dedim… Bu aləmlərdə müqəddər olma səbəblərlədir, yoxsa səbəblərsiz?

Dedi… Səbəblər silsiləsi ilə təqdir olunur. Çünki onların bir-birlərindən ayrılması qeyri-mümkündür, mahaldır.

Dedim… Bəs bizim rəftarlarımız, dualarımız, israrlarımız, ciddiliyimiz də ilahi səbəblərdən ola bilər. Çünki nəfsani meyllər, adətən, ixtiyardan kənardadır.

Allah bağışlamaq istərsə əgər,
Bəndəni yalvarış halına çəkər.

Hər necə olsa duada israr, Allahdan istəmə bəzi müqəddəratların səbəblərindəndir ki, uzağı yaxın, yaxını zühura çatdırır. Maneəni aradan götürür və vücuda şərait yaradır. Əlavə, duada israr etmək müstəhəbbatdan, bəyənilmiş işlərdəndir. Əgər mətləbə təsir etməsə də ən azı savaba səbəb olar.

Həmin mələk öz çəkinməsindən bir qədər əl götürüb, sakitcəsinə, istər-istəməz yola yoldaş oldu.

Dedi… Amma rəhmani fikirlər, ilhamat bəndələrə mələklər vasitəsi ilə verilir. Bunsuz iş mahaldır və biz bu hadisədən xəbərsizik.

Dedim… "Bəqərə" surəsinin son ayələri Cəbrəilin vasitəçiliyi olmadan gəlib. De görüm, sizdən ucası var, ya yox?

Dedi… Bəli, çox. O qədərdir ki, onların dərəcələri bizə məlum deyil.

Dedim… Bizə olan bu ilhamat, ola bilsin ki, sizdən uca vəsilə ilə gəlib. Bundan əlavə, biz Peyğəmbər Əhli-beytinin dostlarıyıq və dostluqda zəruridir ki, aşiq öz məşuquna yardım etsin. Lap dua ilə də olsa.

Yaxşı, bizə nə iradınız var? Deyirsiniz ki, nə üçün onu dost tuturuq, nə üçün dostluq zəruriyyətlərinə əməl edirik?

O cavab verməkdən çəkinəndə dedim… Sizin ucadan uçmağınızın səbəbi həmin təkliyinizdir. Əgər biz də əvvəlki tək təcrid olmuş (mücərrəd) qalsaydıq, torpağa bağlanmasaydıq, sizin kimi olardıq. Bəlkə Allahlıq iddiasında da olardıq. Təsdiq edin ki, hər mücərrəd, maddidən bilikli, üstün deyildir.

Hər papağın əyib, ciddi oturan,
Qeysərlik bacarmaz, papaqbaz olar.

***

Açılmaz min nöqtə gördüm burada,
Uzunsaç, dərviş yox, saçaqbaz olar.

"Ləbbeyk" deyə-deyə Cəbəlür-rəhman adlı dağ ətəyinə çatdıq–dağ Ərəfat dağı idi. Deyirlər, bu dağ "Sur"un kiçilmiş dərəcəsidir və Allah-Taala bu barədə buyurub…

"Möminlərlə münafiqlərin arasında içəri tərəfində mərhəmət və bayır tərəfində əzab olan bir sədd çəkiləcəkdir."[1]

Bizdən qabaq dağa çatanlar xeymələrini qurub, gözləmə yerində oturmuşdular. "Ləbbeyk" fəryadları qovuşub havaya qalxdı və dağı lərzəyə gətirdi.

Bizim xeyməmizi qurdular.

## MƏLAİKƏLƏR SADƏ OLURMUŞ

Əvvəlki dəstə başçıları mələklərlə bir yerdə on iki nəfərdi. Mələklərin başçısı və mənimlə birlikdə on dörd nəfər xeyməyə daxil olduq. Soruşduq ki, nə üçün dağın ətəyində dayandınız, yuxarıya qalxmadınız?

Dedilər… Şəxslər gəlib, bildirdilər ki, dağa qalxmaq olmaz. Sizdən başqa kimsə bu dağın ərazisinə keçə bilməz.

"Hündürlüklərdə şəxslər vardır ki, hər kəsi əlamət və simasından tanıyarlar."[2]

Mələklərin rəisi dedi… Siz dəlillərlə bizi qane etdiniz, çünki biz dəlil-sübut əhli deyilik. Amma duyulmuşdur ki, sizin bu işinizdə Allahın razılığı yoxdur. Ola bilsin ki, sizin tovfiqiniz (ilahi yardımdan faydalanmağınız) əzab və işgəncə ilə yanaşı olsun, biz də sizin aranızda əziyyət çəkək.

O bu sözləri rəngi qaçmış, bədəni titrər halda dediyindən məclisdəkilər də qorxuya düşdülər. Mən qorxdum ki, bu sirr buradan bayıra çıxsa, qoşun dağılar. Ona görə də üzümü rislərə tutub dedim ki, bu məclisimiz qapalıdır, məbada söhbətlər bayıra çıxa.

Üzümü mələklərin başçısına tutub, dedim… Siz necə də sadəlövhsünüz, təxəyyüllərə inanırsınız. Qalxın, ordugahın ətrafında gəzişək. Həm adamların halından xəbər tutaq, həm də bu yerlərin mövqeyini öyrənək.

Mən bu təklifi ona görə irəli sürdüm ki, başçı iztirabdan çıxsın. Adını "kəşf" qoyduğu gümanlarından azad olsun. Qədəm-qədəm bir xeyməyə yaxınlaşdıq ki, bir şəxs silahını hazırlaya-hazırlaya zümzümə edir…

İntizar çəkənin canı ağzında,
And verirəm sənə, yetiş fəryada.

Biz qarışqa, sən də gəl Süleyman ol.

---

1"Hədid" surəsi, ayə 13.
2"Əraf" surəsi, ayə 44.

Biz bir quru cisim, yetiş sən can ol.

Mən bu qeyrətli zümzümələrdən ləzzət aldım, iftixar nəzəriylə mələyə baxdım.

Gəzə-gəzə ordugahdan yüz addım aralı bir təpəyə gəlib çatdıq. Təpənin üstündən gördük ki, məşriq üfüqləri başdan-başa qara buludlarla örtülüb. O buludlardan müxtəlif növlü, müxtəlif hərəkətli bir od oxlar tökülürdü ki, deyərdin, üfüq bir parça alovdur. Buludlardan gələn qorxunc gurultular qulaqlarımıza çatırdı.

Məlaikənin nəzərləri o qorxunc səhnəyə sataşdı və dedi…

“La hovla və la qüvvətə illa billah.”

Dedim… Orada nə olub?

Dedi… Ora Bərəhut səmasıdır. Nizə, qılınc, xəncər, əmud surətində ələnən alov oxlar Ali-Mühəmməd düşmənlərinin başına tökülür. Həqiqətdə isə bunlar möminlərin göndərdiyi lənətlərdir. Əsil ilahi intiqam isə yerdədir. İşıq saçan qızarmış dəmir kürəyə bənzər yerdə! Ora alovdan sürünənlər, yırtıcılarla doludur, çaylarından ərinmiş mis axır.

Biz görürdük ki, həmin ağır oxlar onların birinə dəyib, o birinə keçirdi. Yerə dəyəndə yenidən göyə qalxır və yenə də neçəsini parçalayırdı. Bu oxlar qaçmaq istəyənləri təqib edir, ona sancılırdı. Elə bil, hədəfini tanıyırdı, şüurlu idi.

“Bu dünya həyatı oyun-oyuncaqdan başqa bir şey deyil.”[1]

O adamlar ixtiyarsız olaraq, suda sədəfotu oynayan kimi qalxır, düşür, aramlıq tapmırdılar. Fəryadları qulağımıza it səsi kimi yetişirdi. Bu mənzərə hamının sevincinə səbəb olmuşdu. Göstəriş verdim ki, mənim xeymələrimi təpənin üstündə qursunlar. Başqaları da öz xeymələrini buraya köçürdülər. Biz ardıcıl lənətlər yağdırdıqca göydən yağan alovlu oxların sayı artır, az qala göyün üzü tutulurdu.

Qoşun lənət və nifrinə olan şövqdən elə lənət yağdırırdı ki, axırda ağızları qurudu. Düşmənlərin bədəni kabab oldu, deşilib ələyə döndü.

Bu atəşi görərək iman əhli geri çəkilmirdi. Çünki məzlumun ürəyinin rahatlığı zalimin ölümü, varlıq dünyasından çıxmasıdır. Amma axirət aləmində ölüb yox olmaq yoxdur. Çünki orada həyat zatıdır, insanın bədəni yanıb, deşik-deşik olsa da yenidən bərpa olunur.

“Ayələrimizi inkar edənləri oda atacağıq, onların dəriləri yanıb, bişdikcə əzabı həmişə dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik.”[2]

## XEYMƏDƏ MƏŞVƏRƏT

---

7”Ənkəbut” surəsi, ayə 64.

2“Nisa” surəsi, ayə 56.

Yeddi dəstənin başçıları və yeddi məlaikə mənim otağımda toplandılar. Götür-qoy etdik ki, nə edək ki, kamil intiqam hasil olsun, qəlbimiz sakitləşsin. Qarşıdakı mənəvi müharibədə kamil nəticəyə çataq.

Xüsusilə, İmam Zaman (ə)-ın qəlbi qəm-kədərlə doludur. O şəmin pərvanəsi olan şiələr də hüzndən kənar deyillər.

“Bizim şiələr torpaq və gilimizin artığından yaranmışlar, vilayət suyu ilə qarışmışlar. Şadlığımıza şad, qəmginliyimizə qəmgindirlər.” (İmam Sadiq, (ə))

Bəziləri dedilər ki, yaxşı, Bərəhuta daxil olub onları tikə-tikə doğrayaq, lap elə ölməsələr də qəlbimiz soyusun.

Mələklər dedilər… Onların əzabı siz verəcəyinizdən daha ağırdır. İkincisi, sizin Bərəhuta daxil olmağınıza icazə verilməyib.

Bir başqası dedi… Biz Bərhuta daxil olsaq, onların əzabı yüngülləşər. Çünki Cəhənnəm odu mömindən qorxandır.

Mən dedim… Bizim qanımızın coşub qaynamasının səbəbi İmam Zaman (ə)-ın kədəridir. Şiənin qəlbi ona bağlı olduğundan nə qədər ki, onun qəlbi soyumayıb, bizimki də soyumayacaq.

Fikirləşib, onu intizardan qurtarmaq lazımdır. Bunun duadan başqa yolu yoxdur. Biz tam ciddiyyətlə biçarələrə çarə qılandan istəyək ki, dərdimizə çarə etsin. Hamı bu fikri bəyəndi. Yalnız məlaikələr susdu.

Bu vaxt qoşundan bir dəstə adam gəldi və dedilər ki, şəmşirsiz, nizəsiz bizim qəlbimiz soyuyan deyil. Dedim ki, hamıya elan edin ki, sıraya düzülsünlər, Beytül-məmura tərəf gedəcək və Allahdan zühurun təcilini istəyəcəyik.

Hamı düzüldü. Əllərimizi Allah dərgahına qaldırıb “Fərəc” duasına başladıq. Başqa çarəmiz də yoxdu. Sıradan çıxıb bir neçə nəfərlə lövhə olan yerə getdik ki, ali söhbətlərdən eşidək. Bir də gördük ki, Peyğəmbər, (s.ə.v.v), Əli (ə), Əhli-beyt də sıraya durub, əllərini “Fərəc” duasına qaldırıblar. Arxalarında bütün peyğəmbərlər, mürsəllər, göy əhli, mələklər dua üçün durublar.

Dedim… Şəksiz, bu hadisədən dünyaya təsir olacaqdır. Çünki nəzər salıb, Həzrətin özünü, yaxınları ilə bir dağ başında dua halında gördüm.

## ZÜHURA ÜMİDİMİZ VAR

Bütün şəhərlərdə, İslam ölkələrində, məscidlərdə, yığıncaqlarda duaya məşğul idilər. Səhradakı canlılar belə toplanıb, öz dillərində zühurun tezliyinə dua edirdilər.

Bu mənzərəni görəndən sonra zühurun olacağına tamamilə əmin oldum. Sıralar arasına qayıdıb, inqilabi bir əhval gördüm-bəziləri ağlar halda qurumuş dodaqlarla dua halında, bəziləri özündən getmiş. Dedim… Qalxın, ayıq olun ki, zühura ümidimiz var.

Az sonra dünyaya təvəssül edib, Kəbə evindən Həzrət İmam Zaman (ə)-ın səsini eşitdik…

“Eşidin, ey əhli-aləm, Mən intizarı çəkilən İmamam! Agah olun ki, cəddim Hüseyn susuz şəhid edilmişdir.”

Ordugaha qayıdıb Peyğəmbərin (s.ə.v.v) kəlamını uca səslə təkrar etdim… “Hər kəs oğlumun arxasında düşməndən intiqam almaq istəyirsə, əlindəki qılıncla geri qayıdıb, qəbrindən bayıra çıxsın!”

Dinlə o gizlin səsi, gör nə müjdəli səsdi,
Fəraq gecəsi ötdü, vüsal küləyi əsdi.

Torpaq oğluna söylə, ey torpaqdan qaralmış,
Cahan canı zühurda, zülmün bağrı yarılmış!